## PREZİDENT İLHAM ƏLİYEV: AZƏRBAYCANIN XƏZƏRYANI ÖLKƏLƏRLƏ DOSTLUQ VƏ MEHRİBAN QONŞULUQ MÜNASİBƏTLƏRİ UĞURLA İNKİŞAF EDİR

“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 88-ci kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 88-ci kitabındakı materiallar 2018-ci ilin iyunundan avqust ayınadək olan dövrü əhatə edir. Həmin dövrdə Azərbaycanın uğurla təmsil olunduğu tədbirlərdən biri Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı olub. Prezident İlham Əliyev Zirvə toplantısında çıxış edərkən Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətlərinin uğurla inkişaf etdiyini bildirib. Dövlətimizin başçısı vurğulayıb ki, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri...




Bax səh. 3

## PREZİDENT İLHAM ƏLİYEVİN SİYASƏTİ NƏTİCƏSİNDƏ AZƏRBAYCAN GÜCLÜ, DİNAMİK İNKİŞAF EDƏN DÖVLƏTƏ ÇEVRİLİB

Azərbaycan beynəlxalq müstəvidə güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin və davamlı inkişafın təmin olunduğu ölkə kimi tanınır. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında uğurla, uzaqgörənliklə reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Milli inkişaf modelinin uğurla tətbiq olunması və hədəflənən nəticələrin əldə olunması, siyasi, hüquqi və sosial-iqtisadi islahatların davamlı olaraq...



Bax səh. 6



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 24 sentyabr 2019-cu il, çərşənbə axşamı / № 174 (5549). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycanın neft-qaz sektoru yeni inkişaf dövrünü yaşayır



**Prezident İlham Əliyev:** *“Əsrin kontraktı”nın imzalanması tarixi hadisədir. Bu kontraktın faydasını bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı görür*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Quba rayonunun Quba-Qusar (9 km)-Alpan-Kürkün-Susay avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

## Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Əziz qonaqlar!

Sizi Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının açılışı münasibətilə səmimi qəlbdən salamlayıram. Belə mötəbər tədbirin ölkəmizin paytaxtında yenidən keçirilməsindən məmnunluğumu bildirirəm.

Biliyin qiymətləndirilməsi təhsil sahəsinin ayrılmaz tərkib hissəsidir. Müxtəlif bilik və bacarıqların yoxlanılması zamanı nəticələrin obyektiv qiymətləndirilməsi və müasir ölçmə metodlarından istifadə edilməsi böyük əhəmiyyətə malikdir. “Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları” mövzusuna həsr olunan hazırkı konfrans bu baxımdan təhsildə qiymətləndirmənin keyfiyyətinin artırılmasına, eləcə də qiymətləndirmə və qərarvermədə yeni tendensiyaların yaradılmasına öz töhfəsini verəcəkdir.

Azərbaycanın təhsil sistemində son illərdə bir sıra uğurlar qazanılmışdır. Biz postsovet məkanında müasir qiymətləndirmə sistemini tətbiq edən ilk ölkələrdənik. Sistemin fəaliyyəti cəmiyyətimiz və qiymətləndirməni təşkil edən forumlar tərəfindən indi də yüksək dəyərləndirilir. Ölkəmizdə, eyni zamanda, beynəlxalq qiymətləndirmənin inkişaf prinsiplərinə əsaslanaraq lazımi araşdırmalar aparılmış və bu istiqamətdə normativ hüquqi baza təkmilləşdirilmişdir.

Qərar qəbuletmə prosesində qiymətləndirmənin etibarlılığı və daha düzgün qərar qəbul etmək üçün müvafiq qiymətləndirmə üsullarının müəyyən edilməsi aktual məsələlərdəndir. Əminəm ki, 55 ölkədən 300-dən artıq ekspertin qatıldığı konfransınızda qiymətləndirmə sisteminin müxtəlif aspektləri ilə bağlı geniş müzakirələr yeni qiymətləndirmə texnologiyalarının səmərəli tətbiqində və standartların formalaşdırılmasında mühüm rol oynayacaqdır.

Hamınıza cansağlığı və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

**Mehriban Əliyeva**

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti**
**Bakı şəhəri, 23 sentyabr 2019-cu il**



## NAZİRLƏR KABİNETİNİN NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Sentyabrın 23-də Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Baş Nazir Novruz Məmmədov gündəlik barədə məlumat verib. Bildirib ki, iclasda “Azərbaycan Respublikasının 2020-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün...

Bax səh. 3

## AZƏRBAYCAN MİLLİ MƏCLİSİNİN SƏDRİ NUR-SULTANDA NAXÇIVAN SAZİŞİNİN 10 İLLİYİ İLƏ BAĞLI KEÇİRİLƏN DƏYİRMİ MASADA İŞTİRAK EDİB

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti sentyabrın 23-də Qazaxıstan Respublikasının paytaxtı Nur-Sultan şəhərinə səfərə gəlib. AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Oqtay Əsədovun və Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun rəhbərliyi ilə nümayəndə heyətləri Beynəlxalq Türk Akademiyasında olub, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişinin imzalanmasının 10 illiyi münasibətilə keçirilən dəyirmi masada iştirak ediblər. Dəyirmi masada Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırali bildirib ki, 2009-cu ildə türkdilli ölkələrin dövlət başçılarının ortaq qərarı əsasında Azərbaycanın Naxçıvan şəhərində yaradılan Akademiyanın əsas məqsədi türk xalqlarının...

Bax səh. 3



## BAŞ NAZİRİN MÜAVİNİ, YAP SƏDRİNİN MÜAVİNİ-İCRA KATİBİ ƏLİ ƏHMƏDOV İSMAYILLI ŞƏHƏRİNDƏ GƏNCLƏRLƏ GÖRÜŞÜB

Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-İcra katibi Əli Əhmədov sentyabrın 21-də İsmayıllı şəhərində Heydər Əliyev Mərkəzində gənclərlə görüş keçirib...

Bax səh. 4

### Bakıda IAEA 2019 beynəlxalq konfransının açılış mərasimi keçirilib

Sentyabrın 23-də Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın (IAEA: International Association for Educational Assesment) “Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları” mövzusunda 45-ci illik...



Bax səh. 5

### “Zağlı-Zeyvə” yatağı ərazisində səmt qazının yığılması məqsədilə yeni kompressor stansiyası istifadəyə verilib

Sentyabrın 23-də Siyəzəndə, SOCAR-ın əməliyyatçı olduğu “Zağlı-Zeyvə” yatağı ərazisində səmt qazının yığılması...



Bax səh. 3

### Yeni qurğular xam neftdən səmt qazını yığmağa və onu Siyəzənin 15 kəndində istehlakçılara çatdırmağa kömək edəcək

Birləşmiş Millətlər Təşkilatının (BMT) dəstəyi ilə 6 kompressor, 6 seperator və 3 soyuducu qurğu quraşdırılıb...



Bax səh. 3

### Naqif Həmzəyev gənc partiya fəalları ilə görüşüb

Yeni Azərbaycan Partiyası (YAP) Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev fəal gənclərlə görüşüb. Tədbiri açan Naqif Həmzəyev bildirib ki, hər bir xalq özünün xoşbəxt gələcəyə...



Bax səh. 6

### Bu dövlət hamımızındır və onu qorumaq da hamının borcudur

...İlk amil, ilk səbəb odur ki, Azərbaycanın uğurları bir çox qüvvələri qane etmir və bu uğurları qəbul etmək istəməyən, onu həzm edə bilməyən həmin xəbis xislətli qüvvələr...



Bax səh. 6

# Azərbaycanın neft-qaz sektoru yeni inkişaf dövrünü yaşayır

***Prezident İlham Əliyev:*** *“Əsrin kontraktı”nın imzalanması tarixi hadisədir. Bu kontraktın faydasını bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı görür*

*Bəzi xalqlar və dövlətlərin tarixi təcrübəsi - nümunəsi fonunda yeraltı sərvətlər, xüsusilə də enerji resursları bədbəxtlik gətirən bəxşiş - “Troya atı” kimi səciyyələndirilir. Bu, daha çox neft ehtiyatlarından milli məqsədlərə - strateji maraqlara uyğun istifadə edilə bilinməməsi ilə əlaqədardır. Bu kontekstdə biz tərəqqiyə xidmət edə biləcək potensialın tənəzzül mənbəyinə çevrilməsinin nümunələrini cahanın üç qitəsini - Asiya, Afrika və Avropa coğrafiyasını əhatə edən ölkələrin timsalında görmüşük. Başqa sözlə, dünya bu sindromu yaşamış ölkələrin nümunəsində iqtisadi böhran, siyasi xaos, çevriliş, inqilab və digər çoxsaylı neqativ hallara şahidlik edib.*



## AZƏRBAYCAN NEFTİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNƏ XİDMƏT GÖSTƏRİR

Təbii sərvətlərdən - enerji resursları və karbohidrogen ehtiyatlarından milli maraqlara uyğun istifadə edilərək inkişaf və yüksəlişi təmin etməyin Azərbaycan nümunəsi isə müsbət və mütərəqqi örnək kimi diqqəti cəlb edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün Azərbaycan nefti müstəqil Azərbaycan dövlətinə xidmət göstərir.

İnkaredilməz reallıqdır ki, 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanması ilə əsası qoyulan praqmatik enerji strategiyasının uğurla icra olunması nəticəsində həm sosial-iqtisadi inkişaf, yüksəliş təmin olunub, həm də Azərbaycanın təşəbbüsü və liderliyi ilə geostrateji əhəmiyyətli layihələr reallaşdırılıb, mühüm beynəlxalq əməkdaşlıq platformaları yaradılıb. Bu məqamda vurğulamaq yerinə düşər ki, 1994-cü il sentyabrın 20-də Ulu Öndər Heydər Əliyevin müstəsna xidməti və səyləri sayəsində Bakıda dünyanın altı dövlətini təmsil edən 11 transmilli neft şirkətinin iştirakı ilə Xəzərin Azərbaycan sektorundakı neft ehtiyatları ilə zəngin olan “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının işlənməsinə dair “Əsrin müqaviləsi”nin imzalanması, sözün əsl mənasında, tarixi hadisə idi. “Əsrin müqaviləsi” Azərbaycanın beynəlxalq iqtisadiyyata inteqrasiyasını sürətləndirdi, regional əhəmiyyətli, qlobal xarakterli yeni əməkdaşlıq platformalarının yaranmasını təmin etdi. Yeri gəlmişkən, sentyabrın 20-də Heydər Əliyev Mərkəzində “Əsrin müqaviləsi”nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə çıxış edən Prezident İlham Əliyev bu məqamlara toxunaraq deyib: **“Əsrin kontraktı”nın imzalanması tarixi hadisədir. Bu kontraktın faydasını bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı görür. Təsəvvür etmək çətindir ki, əgər “Əsrin kontraktı” imzalanmasaydı, Azərbaycan o vaxt nəyin hesabına öz iqtisadi inkişafını təmin edə bilərdi. Biz nəyin hesabına uğurla inkişaf edə bilərdik. “Əsrin kontraktı”nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var. Bu kontraktın imzalanması da asan məsələ deyildi. Uzun müddət ərzində aparılan danışıqlar nəticə vermirdi. Əlbəttə, hər iki tərəf çalışırdı ki, özü üçün daha əlverişli və məqbul şərtləri əldə etsin. Hesab edirəm ki, biz “Əsrin kontraktı”nın timsalında beynəlxalq əməkdaşlığın müsbət tərəfini görürük. Çünki həm sərmayə qoyan tərəf - investorlar, həm də ki, Azərbaycan dövləti maraqlar balansını taparaq ən məqbul şərtlərlə özləri üçün bu kontraktı imzaladılar. Əgər investorları kontraktların şərtləri qane etməsə, onda, əlbəttə ki, heç bir kontraktın imzalanmasından söhbət gedə bilməz. Eyni zamanda, Azərbaycan dövlətinin maraqları da tam şəkildə təmin edildi. Bu gün kontraktın icrasının nəticəsi olan yeniləşən, müasirləşən, güclənən Azərbaycan bu sözlərimin əyani sübutudur”.**

*“Eyni zamanda, neftdən əldə edilmiş gəlirlər ölkəmizin sürətli inkişafına şərait yaratdı. Biz dünyada neft sənayesində gedən işlərdən xəbərdarıq. Bir çox hallarda neft xoşbəxtlik gətirmir, faciə gətirir, qarşıdurma gətirir, qeyri-bərabərlik gətirir, ədalətsizlik gətirir”*

Dövlətimizin başçısı onu da qeyd edib ki, “Əsrin kontraktı” Ulu Öndər Heydər Əliyevin neft strategiyasının tərkib hissəsidir, onun başlanğıcıdır. **“Məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi sayəsində Azərbaycan özünü dünyaya təqdim edə bildi. Tarixdə ilk dəfə xarici şirkətlər Xəzər dənizində neft-qaz yataqlarının işlənilməsində iştirak etməyə başlamışlar. “Əsrin kontraktı”nın imzalanması nəticəsində on minlərlə yeni iş yeri yaradılmışdır. Azərbaycanda minlərlə şirkət bu kontraktın icrasında podratçı kimi fəaliyyət göstərir. Yəni, “Əsrin kontraktı”nın çox böyük faydası var”,** - deyə dövlətimizin başçısı bildirib.

## AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏKDAŞLIQ, ENERJİ SAHƏSİNDƏ BÖYÜK UĞURLAR ƏLDƏ EDİB

Şübhəsiz ki, “Əsrin müqaviləsi” həm də yeni transmilli enerji layihələrinin həyata keçirilməsində çox mühüm rola malikdir. 1994-cü ildən sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalanması bu baxımdan xüsusi vurğulanmalıdır. Daha dəqiq desək, bu gün yeni kontraktlar imzalanır, Azərbaycan beynəlxalq əməkdaşlıq, enerji sahəsində böyük uğurlar əldə edir.

Ümumiyyətlə, milli maraqlar nəzərə alınmaqla hazırlanan yeni neft-qaz strategiyasında enerji nəqli marşrutlarının şaxələndirilməsi əsas prioritetlərdən biri kimi müəyyənləşdirilib. Azərbaycan bir neçə nəql marşrutunun yaradılmasına nail olub. 1990-cı illərin sonlarında Xəzər və Qara dənizləri birləşdirən Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi enerji resurslarının nəqli və şaxələndirilməsi baxımından çox mühüm əhəmiyyət daşıyan hadisə idi. Daha sonra 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan kəməri istifadəyə verildi. Bu, mühüm tarixi hadisə idi. Bakı-Tbilisi-Ceyhanın istifadəyə verilməsi sayəsində şirkətlər daha çox sərmayə qoymaq və daha çox neft çıxarmaq imkanı əldə etdilər. Eyni zamanda, yeni nəql marşrutundan faydalanan Azərbaycan öz ixracını əhəmiyyətli dərəcədə artırmağa nail oldu.

*“Əsrin kontraktı” Ulu Öndər Heydər Əliyevin neft strategiyasının tərkib hissəsidir, onun başlanğıcıdır. Məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi sayəsində Azərbaycan özünü dünyaya təqdim edə bildi. Tarixdə ilk dəfə xarici şirkətlər Xəzər dənizində neft-qaz yataqlarının işlənilməsində iştirak etməyə başlamışlar”*

Əlamətdar haldır ki, bu gün Bakı-Tbilisi-Ceyhandan digər ölkələr də faydalanırlar. Belə ki, Xəzərin şərq sahilində yerləşən ölkələr tərəfindən hasil edilən neft də artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. 2007-ci ildə isə daha bir nəql marşrutu - Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Beləliklə, Azərbaycan ilk dəfə olaraq beynəlxalq bazarlara təbii qaz nəql edən dövlətə çevrildi. Qeyd edək ki, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Şahdəniz” yatağından çıxarılan qazın Gürcüstan və Türkiyəyə nəqli üçün inşa edilib. Kəmərin uzunluğu 980 kilometr, diametri 42 düymdür. Boru kəməri ildə 20 milyard kubmetrədək ötürmə gücünə malikdir. Şübhəsiz ki, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin istifadəyə verilməsi də əhəmiyyətli tarixi hadisə idi. Bu layihə olmadan “Şahdəniz” yatağının işlənməsi də mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazının Gürcüstana və Türkiyəyə nəqlinə başlanıldı. Bakı-Tbilisi-Ərzurum istifadəyə verilsə də, “Şahdəniz” yatağının zəngin ehtiyatlarının Avropaya çatdırılması üçün daha böyükhəcmli yeni dəhlizin yaradılmasına ehtiyac var idi. Azərbaycan bu reallıqları nəzərə alaraq yeni qazötürücü xəttin - Cənub Qaz Dəhlizinin yaradılması təşəbbüsü ilə çıxış etdi. Buna paralel olaraq Türkiyə və Azərbaycan yeni bir layihəni irəli sürdülər. TANAP adlanan bu layihə üzrə anlaşmanı 2012-ci ildə İstanbul şəhərində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzaladılar. Beləliklə, Cənub Qaz Dəhlizinin reallaşmasına güclü təkan verildi. İndiyədək layihənin 4 seqmenti üzrə həyata keçirilən tədbirlər çərçivəsində “Şahdəniz” yatağının istismara hazırlanması üçün lazımi işlər görülüb, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi ilə bağlı layihələr tamamlanıb. 2018-ci il 29 may tarixində Bakıdakı Səngəçal terminalında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın və bir sıra digər dövlətlərin, həmçinin Avropa İttifaqının yüksək səviyyəli rəsmilərinin iştirakı ilə ayrı-ayrı mühüm parametrləri baxımından strateji önəm daşıyan Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib. Ötən il Cənub Qaz Dəhlizinin daha bir mühüm seqmentinin - Trans Anadolu Qaz Boru Kəmərinin (TANAP) inşası tamamlanıb. 2018-ci il 12 iyun tarixində Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib. Hazırda Cənub Qaz Dəhlizi üzrə əsas diqqət TAP seqmentinin icrasına yönəldilib. TAP TANAP-ın davamı kimi seçilib. İndiyədək layihə çərçivəsində nəzərdə tutulan işlərin 87 faizi tamamlanıb. Qeyd edək ki, TAP qaz boru kəməri Avropanın üç ölkəsinin ərazisindən - Yunanıstan, Albaniya və İtaliyadan keçir. TAP vasitəsi ilə ilk Azərbaycan qazının Avropaya çatdırılması 2020-ci ilə planlaşdırılır.

Bütövlükdə, artıq 25 ildir ki, ölkəmizdə yeni neft strategiyası uğurla həyata keçirilir. 2017-ci il sentyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması da mühüm əhəmiyyətə malikdir. Bu Sazişin imzalanması ilə böyük ehtiyatlara malik “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının işlənilməsində yeni mərhələ başlayıb.

Beləliklə, Azərbaycan sahib olduğu zəngin enerji ehtiyatlarından səmərəli şəkildə istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Ölkəmiz milli maraqlara müvafiq olaraq həyata keçirilən praqmatik və rasional siyasət nəticəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin mərkəzi oyunçusuna çevrilib. Təsadüfi deyil ki, bu gün Azərbaycanın iştirakı olmadan regionda heç bir layihə gerçəkləşdirilə bilməz. Əsas strateji məqamlardan biri də budur ki, Azərbaycanın praqmatik enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində, əməkdaşlığın dərinləşməsində strateji faktor kimi çıxış edir. Qarşılıqlı investisiya qoyuluşunun artması, yeni əməkdaşlıq platformalarının yaradılması, enerji resurslarının, karbohidrogen ehtiyatlarının əlverişli və təhlükəsiz marşrutlarla daşınması çoxşaxəli əməkdaşlığın səmərəli nəticələridir.

*“Əsrin kontraktı”nın imzalanması nəticəsində on minlərlə yeni iş yeri yaradılmışdır. Azərbaycanda minlərlə şirkət bu kontraktın icrasında podratçı kimi fəaliyyət göstərir. Yəni, “Əsrin kontraktı”nın çox böyük faydası var”*

## AZƏRBAYCAN ŞİMAL-CƏNUB BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZİNİN REALLAŞMASINDA MÜHÜM ROL OYNAYIR

Bunlarla yanaşı, Azərbaycanda yaradılan müasir infrastruktur ölkəmizi Avrasiyada strateji nəqliyyat qovşağına çevirib. Son 15 ildə ölkəmizin Avropa ilə Asiya arasında mühüm tranzit məkana çevrilməsini təmin etmək məqsədilə böyük iş həcmi yerinə yetirilib, bir sıra önəmli layihələr reallaşdırılıb. Respublikamızın ərazisində həmçinin Şimal-Cənub dəhlizinin ayrı-ayrı seqmentlərini təşkil edən magistralların yenidən qurulması da uğurla həyata keçirilir. İndiyədək respublikamız istər Rusiya sərhədinə, istərsə də İran sərhədinədək olan magistralların yenidən qurulmasına böyük həcmlərdə maliyyə vəsaiti yönəldib.

Son dövrlərdə Şimal-Cənub nəqliyyat dəhlizi layihəsinin keçəcəyi regionda, fərqli qütblər arasında geosiyasi rəqabətin daha da kəskinləşməsi fonunda stabil və balanslı xarici siyasət yürüdən Azərbaycan yeni siyasi və iqtisadi dividendlər əldə etməyi hədəfləyib. “Beynəlxalq Şimal-Cənub nəqliyyat dəhlizi” layihəsi 2000-ci ildə İran, Rusiya və Hindistan tərəfindən dövlətlər arasında nəqliyyat əlaqələrini inkişaf etdirmək məqsədi ilə yaradılmışdır. Dəhliz vasitəsi ilə yüklərin gəmilərlə Hindistanın Mumbay limanından İranın Bəndər-Abbas limanına gətirildikdən sonra qatarlara yüklənməsi və İranın mövcud dəmir yolu ilə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinə ötürülməsi və birbaşa Azərbaycan ərazisindən Rusiyaya, oradan da Şimali Avropa ölkələrinə çatdırılması planlaşdırılır. Hazırkı marşrut (Süveyş kanalı) üzrə malların çatdırılma vaxtı 45-60 gündür, Şimal-Cənub dəhlizi vasitəsilə 14-20 gün olması gözlənilir. 2005-ci ildən etibarən layihənin önəmli parçasına çevrilən Azərbaycan, son illərdə üzərinə götürdüyü bütün vəzifələri icra edib. İran sərhədinə qədər dəmir yolu infrastrukturunun yenilənməsi təmin edilib və 2018-ci ilin martında İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin ölkəmizə rəsmi səfəri çərçivəsində Astara-Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi ilə bağlı saziş imzalanıb. Azərbaycan Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun tezliklə istifadəyə verilməsində maraqlıdır və artıq yolun Rəşt-Astara hissəsinin tikintisinə 500 milyon dollar güzəştli kredit ayrılması ilə bağlı qərar qəbul olunub. Azərbaycanın Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı layihənin ciddiliyini nəzərə alaraq investisiya yatırması ölkəmizə beynəlxalq arenada etibarlı tərəfdaş imicini qazandırıb. Son illərdə Bakı-Tbilisi-Ceyhan dəmir yolunun, Ələtdə Beynəlxalq Limanın tikilib istifadəyə verilməsi və azad iqtisadi zonanın yaradılması nəticəsində Azərbaycan Mərkəzi Asiyanı Qərblə (Türkiyə və Avropa İttifaqı), Cənubi Asiyanı (İran və Hindistan) isə Şimalla birləşdirən nəqliyyat qovşağına çevriləcək.

Beləliklə, Azərbaycan Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin reallaşmasında mühüm rol oynayır.

*“...Neftdən əldə edilmiş gəlirlər ümumi inkişafımıza sərmayə kimi qoyuldu. Sosial məsələlərin həlli üçün şərait yaratdı. Ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi üçün imkan yaratdı. Müasirləşən şəhərlər, abadlaşan kəndlər, ölkədə gedən quruculuq, abadlıq - bütün bunların təməlində bizim neft sənayemiz dayanır”*

## ÖLKƏMİZDƏ SOSİAL-İQTİSADİ İNFRASTRUKTUR MÜASİR TƏLƏBLƏRƏ UYĞUN YENİDƏN QURULUB, İQTİSADİYYAT ŞAXƏLƏNDİRİLİB VƏ QEYRİ-NEFT SEKTORUNDA GÜCLÜ POTENSİAL FORMALAŞDIRILIB

Bunlarla yanaşı, praqmatik enerji strategiyasının uğurla icra olunması və neft gəlirlərindən səmərəli istifadə edilməsi nəticəsində ölkəmizdə sosial-iqtisadi infrastruktur müasir tələblərə uyğun yenidən qurulub, iqtisadiyyat şaxələndirilib və qeyri-neft sektorunda güclü potensial formalaşdırılıb. Statistik göstəricilər də bu reallığı təsdiq edir. Diqqət yetirək: son 25 il ərzində Azərbaycanda ümumi daxili məhsul istehsalı 216 dəfə, adambaşına düşən məhsul 162 dəfə artıb. Bununla yanaşı, son 15 ildə ölkəmizdə ümumi daxili məhsul istehsalı 3,2 dəfə, qeyri-neft sahəsində ÜDM 2,8 dəfə, sənaye məhsulu istehsalı 2,6 dəfə, qeyri-neft sənayesi 2,2 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 2 dəfəyə yaxın artıb.

Digər tərəfdən, iqtisadiyyatın dinamik inkişafı səmərəli sosial siyasət həyata keçirməyə imkan verib, Azərbaycan spesifik - unikal sosial dövlət modeli formalaşdırıb. Son 15 ildə Azərbaycanda əməkhaqları 7,5 dəfə, pensiyalar isə 10 dəfədən çox artırılıb, 2003-2018-ci illərdə işsizlik səviyyəsi 49 faizdən 5,4 faizə, yoxsulluq səviyyəsi isə 5 faizə enib. Ümumiyyətlə, Azərbaycanda səmərəli sosial siyasət həyata keçirilir, vətəndaşlar yüksək dövlət qayğısı ilə əhatə olunublar. Bu istiqamətdə mütəmadi olaraq Fərman və sərəncamlar imzalanır, müvafiq qərarlar qəbul olunur. Prezident İlham Əliyevin sosial sahə ilə bağlı inqilabi qərarları hər bir vətəndaşın və bütövlükdə cəmiyyətin rifahını təmin edir. Xüsusi olaraq vurğulamaq gərəkdir ki, 2019-cu ilin əvvəlindən etibarən sosial islahatlar daha aktiv fazaya daxil olub. Cari ilin əvvəlində Prezident İlham Əliyevin müvafiq sosial paket çərçivəsində Fərman və sərəncamlar imzalaması 3 milyona yaxın insanın sosial müdafiəsinin gücləndirilməsi sahəsində inqilabi addım olub və bu məqsədlər üçün 1,5 milyard manat ayrılıb. 2019-cu ilin əvvəlindən minimum əməkhaqqının, minimum pensiyanın, tələbələrin təqaüdlərinin artırılması, digər ödənişlərin verilməsi böyük sosial paketin tərkib hissəsidir. 2 milyondan çox insanı əhatə edən yeni sərəncamlar isə həm dövlət orqanlarında, həm də özəl sektorda çalışanların maddi vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, məcburi köçkünlər üçün yüzdən çox şəhərcik salınıb, yüz minlərlə köçkünə yeni evlər verilib, yeni mənzillər təqdim edilib. Şəhid ailələrinə, müharibə veteranlarına güzəştlərin, müavinətlərin, mənzillər və minik avtomobillərinin verilməsi də xüsusi qeyd edilməlidir. Nəticə etibarilə, bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin humanizm və sosial ədalət prinsiplərinə söykəndiyini, bu siyasətin mərkəzində ölkə vətəndaşlarının mənafeyi və rifahının dayandığını bir daha göstərir.

Bunlarla yanaşı, neftdən gələn gəlirlərdən səmərəli istifadə olunması nəticəsində yüksək infrastruktur təminatı yaradılıb, ölkədə geniş abadlıq-quruculuq işləri aparılıb, paytaxt Bakının və regionlarımızın siması müasirləşib, əhəmiyyətli dərəcədə dəyişilib. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, bu gün Azərbaycan yolları keyfiyyətinə görə dünya miqyasında 34-cü yerdədir. Digər faktlara da nəzər salaq: ölkədə qazlaşdırma 96 faizdir, əhalinin 75 faizi isə dayanıqlı içməli su ilə təmin edilir və bu proses davam etdirilir. Sosial infrastruktur tamamilə yenidən qurulub, 3200-dən çox məktəb, 640-dan çox xəstəxana tikilib və təmir olunub. Bütün bunların əsasında, şübhəsiz ki, güclü maliyyə imkanları və sürətli iqtisadi inkişaf dayanır.

“Əsrin müqaviləsi”nin dünya təcrübəsində özünə layiqli yer tutan kontrakt olduğunu, həm dövlətin, həm də investorların maraqlarının təmin olunduğunu deyən dövlətimizin başçısı **“Eyni zamanda, neftdən əldə edilmiş gəlirlər ölkəmizin sürətli inkişafına şərait yaratdı. Biz dünyada neft sənayesində gedən işlərdən xəbərdarıq. Bir çox hallarda neft xoşbəxtlik gətirmir, faciə gətirir, qarşıdurma gətirir, qeyri-bərabərlik gətirir, ədalətsizlik gətirir. Azərbaycanın timsalında neft xeyir gətirib. Çünki neftdən əldə edilmiş gəlirlər ümumi inkişafımıza sərmayə kimi qoyuldu. Sosial məsələlərin həlli üçün şərait yaratdı. Ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi üçün imkan yaratdı. Müasirləşən şəhərlər, abadlaşan kəndlər, ölkədə gedən quruculuq, abadlıq - bütün bunların təməlində bizim neft sənayemiz dayanır”,** - deyə vurğulayıb. Bütövlükdə, “Əsrin müqaviləsi”nin imzalanması ilə təməli qoyulan enerji strategiyası, eləcə də neft gəlirlərindən səmərəli istifadə olunması, iqtisadiyyatın şaxələndirilməsi və digər fundamental tədbirlər Azərbaycanın davamlı nailiyyətlər əldə etməsini şərtləndirdi. Bu gün müasir müstəqil Azərbaycan qüdrətli dövlət kimi möhtəşəm nailiyyətlər qazanaraq yeni zirvələr fəth edir.

**Nurlan QƏLƏNDƏRLİ**

# Prezident İlham Əliyev: Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətləri uğurla inkişaf edir

## *"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 88-ci kitabı çapdan çıxıb*




"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 88-ci kitabı çapdan çıxıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 88-ci kitabındakı materiallar 2018-ci ilin iyunundan avqust ayınadək olan dövrü əhatə edir. Həmin dövrdə Azərbaycanın uğurla təmsil olunduğu tədbirlərdən biri Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı olub. Prezident İlham Əliyev Zirvə toplantısında çıxış edərkən Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətlərinin uğurla inkişaf etdiyini bildirib. Dövlətimizin başçısı vurğulayıb ki, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilidir. Prezidentin Zirvə toplantısında dərin məzmunlu çıxışının mətni 88-ci kitaba daxil edilib.

Kitabda Prezident İlham Əliyevin NATO-nun Zirvə toplantısında iştirak etmək üçün Brüsselə səfəri çərçivəsində keçirdiyi görüşləri barədə informasiyalar, NATO-nun Əfqanıstanda qətiyyətli dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə çıxışının mətni, Fransa və Qazaxıstana səfərlərindən bəhs edən materiallar yer alıb.

Oxucu nəşrdə dövlətimizin başçısının Azərbaycana səfərə gəlmiş Türkiyə, İtaliya, Tacikistan prezidentləri, Almaniyanın Federal Kansleri ilə apardığı danışıqlar, mətbuata bəyanatların mətnləri, ölkələr arasında saziş və müqavilələrin imzalanmasına dair materiallarla da tanış ola bilər. Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ olaraq qaldırılır ki, bu da hər cilddə öz əksini tapır.

Çoxcildliyin 88-ci kitabında ölkə rəhbərinin Azərbaycan polisinin yaranmasının 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikası polis orqanlarının şəxsi heyətinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 20 illik yubileyi münasibətilə Konstitusiya Məhkəməsinin kollektivinə təbrik məktubları və digər məktublar yer alıb.

Bu nəşrdə Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında nitqlərinin mətnləri, Şamaxı, İsmayıllı rayonlarına səfərlərinə dair materiallar da toplanıb.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 88-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Nazirlər Kabinetinin növbəti iclası keçirilib



Sentyabrın 23-də Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan Baş Nazir Novruz Məmmədov gündəlik barədə məlumat verib. Bildirib ki, iclasda "Azərbaycan Respublikasının 2020-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2020-ci il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında" məsələ müzakirə olunacaq.

Novruz Məmmədov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev artıma və inkişafa əsaslanan iqtisadiyyatın şaxələndirilməsini və qeyri-neft sektorunun prioritetliyini təmin edən dayanıqlı icmal büdcənin və dövlət büdcəsinin hazırlanmasını qarşımıza qoyulan əsas vəzifələrdən biri kimi müəyyənləşdirib. Azərbaycan Respublikasının 2020-ci il üçün dövlət büdcəsinin layihəsi "Büdcə sistemi haqqında" Qanuna müvafiq olaraq ölkənin ortamüddətli büdcə və maliyyə sistemi, sosial-iqtisadi inkişaf proqnozları, qəbul edilmiş dövlət proqramlarının maliyyə təminatı əsas götürülməklə gələn il və sonrakı üç il üzrə makroiqtisadi proqnoz göstəriciləri, gözlənilən iqtisadi meyillər də nəzərə alınmaqla hazırlanıb. **"Əminəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan və müasir çağırışlara cavab verən uğurlu sosial-iqtisadi siyasət qarşıdakı illərdə də davam etdiriləcək, nəzərdə tutulan hədəflərə nail olunması ilə ölkəmizin davamlı inkişafı təmin ediləcək",** - deyə Baş Nazir vurğulayıb.

Baş Nazir bildirib ki, dünya iqtisadiyyatında geriləmələrin müşahidə olunduğu bir vaxtda ölkəmizdə 2020-ci ildə ümumi daxili məhsulun həcminin 82,7 milyard manatdan çox, real artımın 2,4 faiz, qeyri-neft sektorunda artımın isə 3,3 faiz səviyyəsində olacağı proqnozlaşdırılır. Müzakirəyə təqdim olunan sənədlər iqtisadiyyatın səmərəliliyinin və dayanıqlılığının təmin edilməsinə, onun aparıcı sahələrinin möhkəmləndirilməsinə, əhalinin sosial rifahının, qaçqın və məcburi köçkünlərin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılmasına yönəldilib. Növbəti ildə dövlətin müdafiə qabiliyyətinin gücləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi, təhsil islahatlarının davam etdirilməsi, elektrik təchizatı, içməli su, qaz və kanalizasiya sistemlərinin, yol tikintisinin maliyyələşdirilməsi əsas istiqamətlərdəndir. Eyni zamanda, layihədə kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi, əhalinin əsas ərzaq məhsulları ilə təmin olunması, aqrar sektora dövlət qayğısının artırılması və investisiya layihələrinin prioritetləşmə prinsiplərinə uyğun maliyyələşdirilməsi nəzərdə tutulur. 2020-ci ilin dövlət büdcəsinin layihəsində gəlirlərin ümumi daxili məhsulun 29,1 faizini, xərclərin isə 30,9 faizini təşkil edəcəyi, büdcə kəsirinin ümumi daxili məhsulun 1,4 faizi səviyyəsində olacağı proqnozlaşdırılır. Eyni zamanda, gələn il üzrə icmal büdcənin gəlirlərinin 27,6 milyard manat, xərclərinin 28,2 milyard manat həddində olacağı gözlənilir.

Sonra Maliyyə naziri Samir Şərifovun və İqtisadiyyat naziri Şahin Mustafayevin məruzələri dinlənilib.

İclasda gündəlikdəki məsələ ilə bağlı çıxışlar olub, müxtəlif təkliflər səsləndirilib.

# Azərbaycan Milli Məclisinin Sədri Nur-Sultanda Naxçıvan Sazişinin 10 illiyi ilə bağlı keçirilən dəyirmi masada iştirak edib



Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti sentyabrın 23-də Qazaxıstan Respublikasının paytaxtı Nur-Sultan şəhərinə səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Oqtay Əsədovun və Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntopun rəhbərliyi ilə nümayəndə heyətləri Beynəlxalq Türk Akademiyasında olub, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişinin imzalanmasının 10 illiyi münasibətilə keçirilən dəyirmi masada iştirak ediblər.

Dəyirmi masada Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırali bildirib ki, 2009-cu ildə türkdilli ölkələrin dövlət başçılarının ortaq qərarı əsasında Azərbaycanın Naxçıvan şəhərində yaradılan Akademiyanın əsas məqsədi türk xalqlarının qədim və müasir tarixi, dil, ədəbiyyat və mədəniyyətini, habelə türk mədəniyyətinin bəşər sivilizasiyasına töhfəsini tədqiq etmək, türk dünyasında akademik fəaliyyətin əlaqələndirilməsini həyata keçirməkdir. Bu məqsədlə Akademiya türk xalqlarının elmi qurumlarına elm və təhsil məsələsində yardımçı olur, türkdilli ölkələr və xalqların ziyalılarının təşəbbüslərinə dəstək verir, onları müntəzəm olaraq bir araya gətirir. Akademiyanın prezidenti Azərbaycana və Türkiyəyə türkdilli dövlətlər arasında inteqrasiyaya verdikləri dəstəyə görə təşəkkür edib. O, Prezident İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi ilə əlaqədar ötən il UNESKO-nun baş qərargahında təşkil olunan beynəlxalq forum çərçivəsində Cümhuriyyətin 100 illik yubileyinin qeyd olunduğunu vurğulayıb. **"Bu il isə "Nəsimi İli" çərçivəsində yenə də UNESKO-nun baş qərargahında keçirilən forumda böyük şairin 650 illik yubileyi və Naxçıvan Sazişinin 10 illiyi qeyd olunub",** - deyə D.Kıdırali bildirib.



Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntop türk dünyasının beynəlxalq münasibətlərdə güclü aktora çevrilməsinin vacibliyini və bu prosesdə bu il 10 illiyi qeyd olunan Naxçıvan Sazişi ilə qurulan ortaq regional təşkilatların rolunu vurğulayıb. Türk Şurası, TÜRKPA, Beynəlxalq Türk Akademiyası kimi təşkilatların qısa zamanda mühüm işlər gördüyünü deyən M.Şəntop dəyirmi masaya ev sahibliyi edən Beynəlxalq Türk Akademiyasının vacib elmi tədqiqatlar və elmi ekspedisiyalar təşkil etdiyini, çox sayda kitablar nəşr etdirdiyini söyləyib və bu istiqamətdə fəaliyyətin beynəlxalq səviyyədə təşviqinin önəmli olduğunu diqqətə çatdırıb.

Milli Məclisin Sədri Oqtay Əsədov Naxçıvan Sazişinin imzalanmasının böyük tarixi hadisə olduğunu deyib və onun türkdilli dövlətlərin əməkdaşlığında yeni bir səhifə açdığını bildirib. Sədr hazırda türkdilli xalqların inteqrasiyasına xidmət göstərən önəmli təşkilatların - TÜRKPA-nın Baş Katibliyinin və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun qərargahının Bakıda yerləşdiyini vurğulayıb. O, son illər Beynəlxalq Türk Akademiyasının fəaliyyətinin xüsusilə nəzərə çarpdığını, yaradıldığı qısa müddət ərzində onun türkdilli xalqların tarixi, mədəni və mənəvi irsinin araşdırılması və təbliği sahəsində bir sıra uğurlara imza atdığını qeyd edib. Parlamentin Sədri əmin olduğunu bildirib ki, Akademiya öz fəaliyyəti ilə ümumi dəyərlərimizin qorunmasına və inkişafına hələ çox töhfələr verəcək.

Sonra Oqtay Əsədova və Mustafa Şəntopa türkdilli dövlətlər və xalqlar arasında inteqrasiyanın dərinləşdirilməsi, təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığın inkişafında xidmətlərinə görə Beynəlxalq Türk Akademiyasının qızıl medalı təqdim olunub.

Həmçinin səfər çərçivəsində qonaqlar Beynəlxalq Türk Akademiyasında fəaliyyət göstərən Türk Muzeyini ziyarət edib və türkologiya sahəsində 50 mindən çox nadir kitabın toplandığı kitabxana ilə tanış olublar.

Xatırladaq ki, Milli Məclisin Sədri Oqtay Əsədov Nur-Sultan şəhərində keçiriləcək Avrasiya ölkələri parlament sədrlərinin IV konfransında iştirak edəcək. Tədbirə Avropa və Asiyanın müxtəlif ölkələrinin parlament rəhbərləri və nüfuzlu beynəlxalq təşkilatların təmsilçiləri dəvət olunublar.

"Böyük Avrasiya: Dialoq. Etimad. Tərəfdaşlıq" mövzusunda keçiriləcək konfransın əsas məqsədi Avrasiya məkanında əməkdaşlığın daha da dərinləşdirilməsi üçün Avropa və Asiyanın qanunverici orqanlarının rəhbərləri və parlamentlərarası təşkilatların başçıları arasında birbaşa dialoqun qurulmasıdır.

Səfər çərçivəsində Milli Məclis Sədrinin tədbirdə iştirak edən nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri də nəzərdə tutulub.

# "Zağlı-Zeyvə" yatağı ərazisində səmt qazının yığılması məqsədilə yeni kompressor stansiyası istifadəyə verilib



Sentyabrın 23-də Siyəzəndə, SOCAR-ın əməliyyatçı olduğu "Zağlı-Zeyvə" yatağı ərazisində səmt qazının yığılması məqsədilə quraşdırılmış kompressor stansiyasının açılışı olub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, kompressor stansiyası SOCAR və BMT İnkişaf Proqramının (BMT İP) Azərbaycan nümayəndəliyi tərəfindən birgə həyata keçirilən "Azərbaycanın yanacaq istehlakı sektorunda karbon emissiyalarının azaldılmasını təmin edən Milli Fəaliyyət Planları" (NAMA) layihəsi çərçivəsində inşa edilib.

Açılış mərasimində SOCAR-ın prezidenti Rövnəq Abdullayev, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, BMT İP-nin Azərbaycan ofisinin rəhbəri Alessandro Frakassetti və SOCAR-ın ekologiya üzrə vitse-prezidenti, layihənin rəhbəri Rəfiqə Hüseynzadə iştirak ediblər.



Spesifik vəzifəsi SOCAR-ın İqlim Dəyişikliyinin Təsirlərinin Azaldılması Strategiyasını dəstəkləməkdən ibarət olan NAMA layihəsinin 3-cü komponenti çərçivəsində SOCAR-ın "Siyəzənneft" neft və qazçıxarma idarəsinin (NQÇİ) "Zağlı-Zeyvə" yatağı pilot ərazi olaraq seçilib və burada səmt qazının yığılması məqsədilə birgə işlər görülüb. Ərazidəki 3 qaz yığım məntəqəsində yeni kompressor və separator avadanlıqları, soyuducu sistemlər və onlayn nəzarət sistemi quraşdırılıb, 32 kilometrlik əsas qaz boru xətti çəkilib. İki il ərzində davam etmiş layihənin icrası nəticəsində ildə 6,8 milyon kubmetr səmt qazının yığılması planlaşdırılır. Layihənin başlıca özəlliyi yığılacaq səmt qazının emal olunduqdan sonra əhalinin istehlakına yönəldilməsidir. Beləliklə, 15 ətraf kənd üzrə 1250 abonentin təbii qazla təchizatı təmin olunacaq.

NAMA layihəsi SOCAR və BMT İP tərəfindən 2015-ci ildən həyata keçirilir. Layihə ölkədə enerjiyə qənaət edən və karbon emissiyası aşağı olan texnologiyaları dəstəkləyir. 2013-cü ildən başlayaraq, SOCAR hər il birgə müəssisələrində və digər əməliyyatçı şirkətlərdə atmosferə atılan çirkləndirici qazların ümumi miqdarının hesablanmasını həyata keçirir.

# Yeni qurğular xam neftdən səmt qazını yığmağa və onu Siyəzənin 15 kəndində istehlakçılara çatdırmağa kömək edəcək

Birləşmiş Millətlər Təşkilatının (BMT) dəstəyi ilə 6 kompressor, 6 seperator və 3 soyuducu qurğu quraşdırılıb. Bu, ekoloji layihədir. BMT-nin İnkişaf Proqramı ilə SOCAR arasındakı müqavilədə 3 komponent iştirak edir. Bu komponentlərdən birincisi enerji səmərəliliyidir ki, biz bunu "Azərkimya" İstehsalat Birliyində quraşdırmışıq. İkinci komponent enerji səmərəliliyi olan nəqliyyat vasitələrindən istifadədir. Bununla əlaqədar BMT tərəfindən bizə hibrid maşınlar, simulyator qurğusu verilib. Müqavilənin son mərhələsində isə havaya buraxılan alçaqtəzyiqli qazları toplayıb əhalinin istifadəsinə vermək öz əksini tapır.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu barədə SOCAR-ın ekologiya üzrə vitse-prezidenti Rəfiqə Hüseynzadə Siyəzəndəki neft yataqlarında səmt qazını ayırmaq üçün quraşdırılan kompressorlar və ayırma qurğularının işə salınması mərasimində bildirib.

Rəfiqə Hüseynzadə jurnalistlərə müsahibəsində deyib ki, qurğular BMT tərəfindən quraşdırılıb, 32 kilometr məsafədə borunun çəkilməsi isə SOCAR tərəfindən həyata keçirilib. **"Ümumilikdə 3 stansiya qurulub və ay ərzində 583 min kubmetr qaz yığılacaq. Bu kompressorlar işə salındığı gündən 2-3 kəndə qazın verilməsinə də başlanılacaq. Yeni kompressorlar və ayırma qurğuları xam neftdən səmt qazını yığmağa və onu Siyəzənin 15 kəndində istehlakçılara çatdırmağa kömək edəcək. 600-dən çox ailənin 1250 nəfər üzvü bu proqramdan yararlanacaq"** - deyə, Rəfiqə Hüseynzadə söyləyib.



## Baş nazirin müavini, YAP Sədrinin müavini Əli Əhmədov İsmayıllıda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib

Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-İcra katibi Əli Əhmədov İsmayıllı şəhərinin mərkəzi meydanında Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər gül dəstələri qoyub.

## Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov İsmayıllı şəhərində gənclərlə görüşüb







Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-İcra katibi Əli Əhmədov sentyabrın 21-də İsmayıllı şəhərində Heydər Əliyev Mərkəzində gənclərlə görüş keçirib.

Görüşdə YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, YAP İdarə Heyətinin üzvü, MM-in komitə sədri Eldar İbrahimov, MM-in deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruzəli Aslanov, İsmayıllı rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqov və ictimaiyyət nümayəndələri iştirak ediblər.





Əvvəlcə İsmayıllı şəhərinin mərkəzi meydanında Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə tər gül dəstələri qoyulub.

Heydər Əliyev Mərkəzində keçirilən tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb. YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova tədbirdə giriş sözü ilə çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmizin gündən-günə inkişaf etdiyini bildirib. Qeyd olunub ki, dövlət başçısının regionların inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində İsmayıllı rayonunda da geniş tikinti-quruculuq işləri aparılır, infrastruktur layihələri həyata keçirilir, rayon iqtisadiyyatı və aqrar sahə inkişaf etdirilir. İsmayıllı gəncləri rayonun inkişafında, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirak edirlər.

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə əldə edilən uğurlardan bəhs edib. Əli Əhmədov deyib ki, gənclərin təhsil alması, işləməsi, istirahət etməsi, gənclərimizin qayğısız böyüməsi, layiqli vətəndaş kimi yetişməsi üçün lazım olan bütün imkan və şərait yaradılıb: **“Yeni Azərbaycan Partiyası hökumətimizin müəyyənləşdirdiyi bu siyasətin həyata keçirilməsi üçün öz imkanları çərçivəsində bir çox layihələr həyata keçirir. Bütövlükdə hesab edirəm ki, YAP gəncləri partiyamızın gücünün, fəallığının formalaşmasında, ictimai-siyasi həyatda partiyamızın yaxından iştirak etməsində əhəmiyyətli bir qüvvəyə, gücə çevriliblər”.**

Əli Əhmədov qeyd edib ki, YAP-ın cəmiyyətdə rolunun artması fonunda partiyanın gənclərinin də rolunun artması bizi sevindirir: **“Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, partiyamızın sıralarında gənclərimizin sayı artır və bu, özlüyündə YAP-ın təkcə bu günü ilə deyil, gələcəyi ilə bağlı da böyük perspektivlərə malik olduğunu ifadə edir. Partiyamızın 700 mindən çox üzvü var və onların 40 faizə qədəri gənclərdən ibarətdir. Getdikcə daha çox sayda Azərbaycanın fəal, vətənpərvər gəncləri öz siyasi talelərini partiyamızla bağlayır, Prezident İlham Əliyevin siyasətinə münasibətlərini bu formada ifadə edirlər”.**

Bu gün Azərbaycanın öz tarixinin ən gözəl dövrünü yaşadığını deyən Əli Əhmədov bildirib ki, ölkəmizdə hər bir vətəndaş özünü təhlükəsiz, əmin-amanlıq içərisində hiss edir. Sabitlik, əmin-amanlıq hər bir ailədə, hər bir valideyndə öz uşaqlarının gələcəyi üçün arxayınçılıq hissi yaradır. Dövlət özünün ən müqəddəs vəzifələrindən olan insanların təhlükəsizliyini qətiyyətlə təmin edir. Vətəndaşların rifahı, xoşbəxt gələcəyi üçün imkan və şərait yaradılır. Məktəblər, uşaq bağçaları, xəstəxanalar inşa olunur. Vaxtilə insanları narahat edən problemlər aradan qaldırılır.

Ölkəmizdə gənclərin inkişafı, təhsili, məşğulluğu, eləcə də idmanın inkişafı üçün hər cür şəraitin yaradıldığını qeyd edən YAP Sədrinin müavini Əli Əhmədov bildirib ki, gənclərimiz xoşbəxtdirlər ki, Azərbaycanın bu gözəl dövründə böyüyür, təhsil alır, ölkəmizin tərəqqisində və inkişafında öz xidmətlərini göstərirlər. Gənclər dövlətimizi sevməli, onun yolunda mübariz olmalıdırlar.

Gənclərlə görüşdə MM-in deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, İsmayıllı rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqov, eləcə də gənclərin nümayəndələri çıxış edərək ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan, Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasətin uğurlarından bəhs ediblər.

## Əli Əhmədov İsmayıllı şəhərində Qarabağ müharibəsi veteranları ilə görüşüb







Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini Əli Əhmədov İsmayıllı şəhərində Heydər Əliyev Mərkəzində Qarabağ müharibəsi veteranları ilə görüşüb. Əli Əhmədov Qarabağ müharibəsi veteranlarının qayğıları ilə maraqlanıb və xatirə şəkli çəkdirib.

## Yeni Azərbaycan Partiyasının Şirvan bölgəsi üzrə rayon təşkilatlarının ərazi ilk təşkilat sədrlərinin iştirakı ilə İsmayıllıda müşavirə keçirilib



Sentyabrın 21-də İsmayıllı şəhərində Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-İcra katibi Əli Əhmədovun sədrliyi ilə YAP-ın İsmayıllı, Ağsu, Qəbələ, Qobustan, Kürdəmir və Şamaxı ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.

Müşavirədən öncə Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov məktəblilərin əl işlərindən ibarət rəsm sərgisi ilə tanış olub.

Müşavirədə YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruzəli Aslanov iştirak ediblər.

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov deyib ki, artıq bir neçə regionda Yeni Azərbaycan Partiyasının ilk partiya təşkilat sədrləri ilə görüşlər keçirilib: **“Bundan sonra da belə görüşləri davam etdirmək niyyətindəyik. Partiyanın üzvləri arasında partiya işinin gücləndirilməsi, partiya ünsiyyətinin möhkəmləndirilməsi, bütövlükdə işin səmərəliliyinin artırılması bir çox sahədə müəyyən tədbirlərin həyata keçirilməsini tələb etdiyi kimi, eyni zamanda, partiyanın ilk təşkilatlarının da fəaliyyətinin gücləndirilməsini vacib hesab edirik”.**



YAP-ın sıralarında 750 minə yaxın Azərbaycan vətəndaşının birləşdiyini diqqətə çatdıran Baş nazirin müavini bildirib ki, YAP-ın üzvləri 8 minə yaxın ilk təşkilatda partiyanın sıralarında cəmləşiblər: **“Biz istəyirik ki, YAP-ın şəhər və rayon təşkilatlarının ilk təşkilatları daha səmərəli, daha yaxşı iş qursunlar və bütövlükdə partiyanın fəaliyyətinin daha da gücləndirilməsinə öz töhfələrini versinlər. Biz bu gün qürur duya bilərik ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi yolla irəliləyərək, YAP-ın sıralarında birləşərək Azərbaycanın möhtəşəm bir mərhələ keçməsinə töhfələrimizi verə bilmişik. Biz sevinirik ki, bu gün Azərbaycan, sözün həqiqi mənasında, möhtəşəm bir dövlətə çevrilib, Azərbaycanın iqtisadiyyatı inkişaf edib. Ölkəmizin bütün sahələrində böyük nailiyyətlər əldə edilib. Azərbaycanın siması köklü surətdə dəyişib. Həyatımızın yaxşılaşması istiqamətində böyük layihələr həyata keçirilib, insanların həyat səviyyəsi yaxşılaşıb, ölkəmizin beynəlxalq imici ciddi şəkildə yüksəlib və beynəlxalq əlaqələrimiz genişlənib. Azərbaycan beynəlxalq layihələrin həyata keçirilməsində çox əhəmiyyətli rol oynayan dövlətlərdən biri kimi qəbul olunur. Eyni zamanda, Azərbaycanın daxilindəki sabitlik, əmin-amanlıq bizim ölkəmizlə əlaqədar bütün dünya birliyinin və beynəlxalq təşkilatların birmənalı şəkildə etiraf etdiyi ən başlıca xüsusiyyətlərdən biridir. Hər bir dövlətin vətəndaş qarşısında yerinə yetirməli olduğu vəzifələrdən biri də vətəndaşın təhlükəsizliyinin təmin edilməsidir. Bu, dövlətin öz üzərinə götürdüyü ən başlıca vəzifələrdən və missiyalardan biridir. Məmnunluq hissi ilə qeyd etmək lazımdır ki, Azərbaycan cəmiyyətində vətəndaşın təhlükəsizliyinin təmin edilməsi, ölkənin sabitliyinin, əmin-amanlığının bərqərar olunması ilə əlaqədar əzəmətli bir addım atılıb və möhtəşəm bir fundament qoyulub. Bu gün Azərbaycan bütün parametrlərinə görə dünyanın ən sabit, ən təhlükəsiz ölkələrindən biridir. Bunun çox vacib ifadələrindən biri ölkəmizə gündən-günə artmaqda olan turist sayında görünə bilər. Bir neçə il bundan əvvəl Azərbaycanda turistləri, yəqin ki, görmək o qədər asan deyildi. İndi isə Bakı şəhərinin, Azərbaycanın turizm üçün maraqlı olan bir çox regionlarının həyatının və mənzərəsinin ən vacib görüntülərindən biri də xarici vətəndaşlardır, turistlərdir. Bu, eyni zamanda, Azərbaycandakı sabitliklə, təhlükəsizliklə, əmin-amanlıqla bilavasitə əlaqədardır”.**

YAP-ın Sədr müavini Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın uğurla inkişaf etdiyini, vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində çox əhəmiyyətli addımların atıldığını tədbir iştirakçılarının diqqətinə çatdıraraq qeyd edib ki, bu ilin əvvəlindən dövlətimizin başçısı tərəfindən mühüm sosial islahatlar həyata keçirilib və bunun nəticəsində ölkəmizdə əməkhaqları, təqaüdlər və sosial müavinətlər əhəmiyyətli dərəcədə artıb: **“Yeni Azərbaycan Partiyası bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən quruculuq, abadlıq işlərində yaxından iştirak etmək, bu layihələrin həyata keçirilməsinə öz töhfələrini vermək niyyətindədir. Əgər belə ifadə etmək mümkündürsə, Yeni Azərbaycan Partiyası əzəmətli bir siyasi ordudur ki, onun qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün hər cür fədakarlıq və qəhrəmanlıq göstərməyə hazırdır. Bu vaxta qədər həmin qəhrəmanlığı və fədakarlığı göstərib, təbii ki, bundan sonra da həmin istiqamətdə və ondan daha möhtəşəm, əzəmətli qəhrəmanlığı və fədakarlığı göstərməyə hazırdır. İnanıram ki, bizim bundan sonrakı həyatımızda daha böyük uğurlar əldə ediləcəkdir. Təbii ki, bu uğurların əldə olunmasında YAP-ın hər bir üzvünün, bütövlükdə YAP-ın böyük əməyi və fədakarlığı olacaqdır. Bizim istəyimiz ondan ibarətdir ki, YAP-ın ilk təşkilatları da öz məsuliyyətini daha dərindən dərk edərək fəaliyyətlərini daha da gücləndirsinlər”.**

Azərbaycanın beynəlxalq miqyasda da nüfuzunun davamlı olaraq artdığını deyən Əli Əhmədov ölkəmizin dünyada və regionda baş verən proseslərdə fəal mövqe nümayiş etdirdiyini söyləyib. Bununla belə, Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğunu deyən YAP Sədrinin müavini həmin dairələrin müxtəlif vasitələrlə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını qeyd edib. Bu vasitələrin biri də sosial şəbəkələrdir.

YAP Sədrinin müavini vurğulayıb ki, belə kampaniya aparanlar cəmiyyətimizdə ifşa olunmalıdırlar. Ona görə də partiyamızın üzvləri Azərbaycanın qazandığı nailiyyətləri insanlar arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidirlər. O cümlədən ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin, radikal müxalifətin əsl niyyətləri ifşa olunmalıdır.

Sonda YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov partiya həyatı ilə bağlı müşavirə iştirakçılarına müvafiq tövsiyə və tapşırıqlarını verib.

# Bakıda IAEA 2019 beynəlxalq konfransının açılış mərasimi keçirilib

Sentyabrın 23-də Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın (IAEA: International Association for Educational Assesment) "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusunda 45-ci illik beynəlxalq konfransının (IAEA 2019) rəsmi açılış mərasimi keçirilib. Konfransın Azərbaycanda təşkilatçısı Dövlət İmtahan Mərkəzidir.









IAEA-nın illik konfransı ölkəmizdə ikinci dəfədir təşkil olunur. Builki konfransın işində Azərbaycanla birgə 55 ölkədən 300-dən çox nümayəndə iştirak edir.

Konfransın rəsmi açılış mərasimində iştirakçılar Azərbaycan Respublikasının dövlət himnini ifa ediblər.

AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən IAEA prezidenti Rendi Bennett Dövlət İmtahan Mərkəzinin IAEA-nın mövzularla zəngin bu tədbirinin Azərbaycanda yenidən keçirilməsi üçün səylə çalışdığını vurğulayıb. Bildirib ki, Dövlət İmtahan Mərkəzi maraqlı və informativ elmi proqram, habelə Xəzərin sahilində yerləşən gözəl Bakı şəhərində bir sıra sosial tədbirlər işləyib hazırlayıb. IAEA 2019 təhsilin qiymətləndirilməsini necə inkişaf etdirə biləcəyimiz ətrafında stimullaşdırıcı mübadilə ilə dolu xüsusi bir konfrans vəd edir. Konfransın "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusu apardığımız araşdırmanın və tətbiq etdiyimiz təcrübənin mərkəzində qiymətləndirmənin məqsəd və istifadəsini qoyur. **"Qoy bu konfrans zəngin ideya və diskussiyalarla, habelə təşviq edəcəyi zəngin qarşılıqlı əlaqələrlə yadda qalsın. Təhsilin səmərəliliyini artırmaq və dünyanı daha da yaxşılaşdırmaq naminə birgə işləməyimizə kömək etsin",** - deyən Rendi Bennet konfrans iştirakçılarına məhsuldar və xoş həftə arzulayıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik beynəlxalq konfransının iştirakçılarına ünvanladığı təbrik məktubunu oxuyub.

Tədbirdə çıxış edən Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə konfransın Bakıda ilk dəfə 2007-ci ildə keçirildiyini xatırlayaraq deyib: **"Əvvəlki tədbirimizdən artıq 12 il keçib. Bu müddət ərzində həm biz dəyişmişik, həm də dünya bir çox yeni nəzəri, mədəni və texnoloji yeniliklərin təsirlərinə məruz qalıb. Bütün bunlar da öz növbəsində öyrətməyə, öyrənməyə və ümumilikdə təhsilə təsirsiz ötüşməyib. Bu cür böyük dəyişikliklər, heç şübhəsiz, təhsildə qiymətləndirmədə də dəyişikliklərə səbəb olmalıdır. Artıq onilliklərdir ki, qiymətləndirmə təhsildə aktuallaşan prioritetlərdən birinə çevrilib və bu sahədə islahatlar aparılması da əsas müzakirə mövzularındandır.**

**Nailiyyətlərin sınağı və bu barədə ictimaiyyətə hesabat verilməsi, uşaqların həyat imkanlarını genişləndirmək məqsədilə mövcud resurslardan istifadə barədə siyasətçiləri və cəmiyyəti aşkar məlumatlandıra biləcək azsaylı vasitələrdən biri kimi görünür.**

**Keçmiş təcrübəyə və ötən il Oksfordda "Qiymətləndirmə və böyük verilənlər" mövzusu üzrə keçirilən konfransın nəticələrinə əsaslanaraq söyləyə bilərik ki, əksər qiymətləndirmələr zamanı məlumatların azlığı qarşıya çıxan problemlər arasında yer alır. Çünki əslində əksər hallarda aydın qərar qəbul etmək üçün kifayət qədər çox məlumat bazası olur. Buna görə də builki konfransın mövzusunu daha çox müzakirəyə ehtiyac duyulan istiqamətdə - "Qiymətləndirmə və qərar qəbuletmə" kimi müəyyən etdik.**

**Məhz bu baxımdan, institusional islahat vasitəsi kimi təhsildə qiymətləndirməni təşviq edən ən yaxşı qiymətləndirmə tədqiqatçılarını və əsas şəxsləri konfransımıza dəvət etdik. Onlar sizinlə qiymətləndirməyə əsaslanan qərar qəbuletmənin müxtəlif perspektivlərini müzakirə edəcəklər. Bu sıraya ibtidai təhsildə test, dil biliklərinin qiymətləndirilməsi, qiymətləndirmə sistemləri, sinif qiymətləndirməsi, qiymətləndirmə fəlsəfələri, qiymətləndirmənin yoxlanılması sistemləri, qiymətləndirmənin tərtib olunması, müəllimlərin sertifikasiyası daxildir. Həmçinin qərar qəbuletmə, siyasətin formalaşdırılması, ali təhsil, qiymətləndirmə strategiyaları, müəllim inkişafı, psixoloji qiymətləndirmə, müəllim hazırlığı və qiymətləndirmə, yazı işlərinin qiymətləndirilməsi, validlik, qiymətləndirmə metodları, müqayisəli tədqiqatlar, diaqnostik qiymətləndirmə, qiymətləndirmə standartları, testdə keyfiyyətin təmin olunması, seçim üçün qiymətləndirmə, texnologiya, qiymətləndirmə islahatları, qiymətləndirmənin tətbiqi modelləri, qəbul proqnozları, regional inkişaf müzakirə olunacaq əsas mövzulardır.**

**Bundan əlavə, biz, Astana Dövlət Qulluğu üzrə Regional Xab tərəfindən dəstəklənən dövlət qulluğu panelini də builki proqrama daxil etmişik. Ümid edirəm ki, panel sessiyaları və müzakirələr intellektual baxımdan stimullaşdırıcı və faydalı olacaq.**

**Biz yeni ideyaların yaranmasında, qarşılıqlı əməkdaşlığın qurulmasında çox maraqlıyıq! Biz buna çərşənbə günü Cambridge Assessment (Kembric Qiymətləndirmə) ilə tərəfdaşlıq sazişi imzalamaqla başlayırıq. Biz təhsildə qiymətləndirmə üsullarının tətbiqi ilə əlaqədar olan hər bir kəslə əməkdaşlıq etməyə hazırıq və bunu səbirsizliklə gözləyirik.**

**Tərəfdaşlarımız, sponsorlarımız və bütün bizə dəstək olanlarla birgə sizin Bakıya bu gəlişinizi xoş xatirələrlə zəngin və unudulmaz etməyə çalışmışıq!**

**Bu həftə burada toplaşan və Bakını yenidən təhsilin qiymətləndirilməsi üzrə müzakirələr mərkəzinə çevirən hər bir kəsə dərin təşəkkürümü bildirirəm".**

Təhsil naziri Ceyhun Bayramov ölkəmizdə bu cür nüfuzlu tədbirin təşkilinin əhəmiyyətini vurğulayıb. Diqqətə çatdırıb ki, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının əsas istiqamətləri sırasında səriştəyə əsaslanan təhsil məzmununun və yeni təhsil idarəetmə sisteminin yaradılması, ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzlərinə çevrilməsi və yüksəkixtisaslı kadrlar hazırlanmasının təmin edilməsi, rəqabətqabiliyyətli mütəxəssislər yetişdirilməsi, həmçinin təhsilin beynəlmiləlləşdirilməsi imkanlarının genişləndirilməsi önəmli məsələlərdir. Son 6 ildə təhsilin keyfiyyətində xeyli irəliləyiş əldə edilib. Əldə olunan nailiyyətlərin gedişatını ölçmək üçün Azərbaycan bir sıra beynəlxalq qiymətləndirmə tədqiqatlarında iştirak edir. "Progress in International Reading Literacy Study" (PIRLS) - oxu bacarığının inkişafı üzrə beynəlxalq tədqiqatın nəticələrinə görə, azərbaycanlı şagirdlərin 2016-cı ildə oxu bacarıqları 2011-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 462 baldan 472 bala yüksəlib və ya 10 bal artıb.

Azərbaycanda məktəbəqədər təhsil səviyyəsinin inkişafı istiqamətində mühüm addımlar atılır. Son üç ildə 5 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb göstəricisi 24 faizdən 75 faizə kimi artırılıb.

Ölkəmizdəki mərkəzləşdirilmiş imtahan modelinin yüksək səviyyədə şəffaflıq və rəqabət əldə etməsi baxımından həlledici rolu olub.

Milli tədris proqramları gələcək əmək bazarının ehtiyaclarını ödəmək, öyrənənlərin fərdi rifahına və xoşbəxtliyinə nail olmağa xidmət edir. Bu məqsəd üçün qiymətləndirmə siyasəti əsas aparıcıdır.

Təhsil sistemini dünyada baş verən sürətli dəyişikliklərə uyğunlaşdırmaq əsas istiqamətlərdən biri olmalıdır.

İnanıram ki, konfrans hamımızın bu sahədə ən yaxşı təcrübələrimizi bölüşmək və qarşılaşdığımız ümumi problemləri müzakirə etmək üçün bir platforma olacaq.

Xarici İşlər nazirinin müavini, ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev bildirib ki, konfransın gündəmində duran məsələlər, o cümlədən qiymətləndirmə proseslərində texnologiyaların rolu, imtahan proseslərinə aid psixoloji tədqiqatlar artırılması, təhsildə müəllimlərin yeri universitetlərin gündəlik işinə bilavasitə təsir edir.

Rektor vurğulayıb ki, təhsildə şəffaf və etibarlı qiymətləndirmə prosesinin inkişafı üçün Azərbaycan mühüm irəliləyişlər əldə edib - sovet dönəmindən qalan subyektiv və qərəzli qiymətləndirmə bilik və qabiliyyətləri aydınlaşdıran imtahan sistemi ilə əvəz olunub. Məhz bunun nəticəsində ölkədə həm universitetlərin keyfiyyəti, həm də onların məzun etdiyi insan kapitalının səviyyəsi müvafiq şəkildə qalxıb.

ADA Universitetinin təcrübəsi ilə bölüşən Hafiz Paşayev deyib ki, rəhbərlik etdiyi ali təhsil ocağı ölkədə bakalavr proqramlarına qəbulda beynəlxalq SAT imtahanının nəticələrini nəzərə alan ilk universitet idi. SAT nəticələri ADA-nın ərizə qəbulu prosesində tələb olunan digər sənədlər və daxili müsahibə mərhələsinin nəticələri ilə birgə nəzərə alınır. Hazırda bu təcrübədən ölkənin digər universitetlərində də istifadə olunur.

Hafiz Paşayev diqqətə çatdırıb ki, ADA Universiteti davamlı olaraq Dövlət İmtahan Mərkəzi ilə işləyərək ölkədə imtahan sisteminin təkmilləşdirilməsi üçün yeni yollar və üslublar üzərində çalışır. Buna misal kimi, imtahanlar zamanı istifadə olunan sualların abituriyentlərin məntiqi və tənqidi düşüncə tərzini yoxlamağa istiqamətləndirildiyini göstərmək olar. Beləliklə, tələbələr əzbərçilikdən uzaqlaşaraq, təhlil və tənqid kimi vacib qabiliyyətləri inkişaf etdirirlər. Bundan əlavə, ADA Universiteti ölkədə ilk dəfə olaraq orta məktəbin əhəmiyyətini vurğulamaq məqsədilə pilot layihəsi çərçivəsində ali təhsilə qəbul imtahanlarını orta təhsildən məzun imtahanlarının nəticələri ilə birləşdirdi. Belə ki, bu ildən fəaliyyətə başlayan ADA Məktəbinin məzunları ADA Universitetinin bakalavr pilləsinə məktəbin yekun daxili orta bal qiymətləndirmə sistemi (Cumulative Grade Point Average) əsasında qəbul olunacaqlar. Hafiz Paşayev bu yeniliyin də ölkənin təhsil sisteminə müsbət meyillər gətirəcəyinə inandığını dedi və bildirdi ki, ADA Universiteti dataya əsaslanan təhlil nəticəsində qəbul prosesini daha da təkmilləşdirmək üçün Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıqda humanitar və texniki elmlər üzrə bilikləri qiymətləndirəcək vahid imtahanın institusional həlli yollarını axtaracaq. Bu da məktəbliləri əlavə müəllimlə məşğul olmaq zərurətindən azad edəcək.

Orta məktəb mühitinin vacibliyini diqqətə çatdıran rektor Hafiz Paşayev vurğuladı ki, sinif mühiti tək şagirdlərə bilik və bacarıq vermək üçün deyil, həm də vətəndaş hazırlayan mühit kimi labüddür.

ADA Universitetinin rektoru konfrans müzakirələrinin nəticələrinin dünyanın hər yerində təhsilin keyfiyyətinin qaldırılmasına xidmət edəcəyinə inamını bildirib.

Açılış mərasimində Kolumbiya Universitetindən (ABŞ) Amra Sabik-El Rayessin videomüraciəti təqdim olunub. Müraciətdə Amra Sabik-El Rayess 2018-ci ildə ABŞ dövlət departamenti və Azərbaycan Təhsil Nazirliyi tərəfindən ölkəmizə işə dəvət edildiyini xatırlayaraq deyib: **"Bu, Azərbaycanın təhsil sistemi, onun imkanları və qarşılaşdığı çətinliklərini öyrənməyim üçün böyük fürsət oldu. Uzun illər araşdırdığım sistemlərdən fərqli olaraq, Azərbaycan təhsilin testlə yoxlanılması sahəsində nəzərəçarpan addımlar atıb və digər ölkələr bundan nümunə götürə bilər. Dövlət İmtahan Mərkəzi (DİM) publik hüquqi şəxs kimi Azərbaycanda təhsil sahəsində standartlaşdırılmış test imtahanlarının keçirilməsinə məsuliyyət daşıyır və təhsildə hərəkətliliyə ictimai inamın yenidən qurulmasında aparıcı rol oynayır. Azərbaycana gələndə verdiyim ilk sual DİM-in bunu necə etməsi haqqında olmuşdu. Cavab isə belə idi: DİM subyektiv təsiri minimuma endirmək üçün texnologiyanın tətbiqindən geniş istifadə edir. DİM, eyni zamanda, "Educational Testing Services", UNESKO və digər beynəlxalq qurumlarla əməkdaşlığı genişləndirib. Bu, Azərbaycan tələbələrinin DİM tərəfindən aparılan test imtahanlarının legitimliyinə olan inamının bərpasına kömək edib. DİM ali təhsildə test üsulunun obyektivliyi və şəffaflığının təkmilləşdirilməsi ilə yanaşı, 2012-ci ildən bəri orta məktəblərdə buraxılış imtahanlarını da standartlaşdırılmış test üsulu üzrə keçirməyə başlayıb. Sizə maraqlı ola bilər ki, onları işlərini genişləndirməyə nə vadar etdi? 2012-ci ilə qədər məktəblərdə ilk sıralarda olan şagirdlər ali məktəblərə qəbul imtahanlarında heç də həmişə yüksək nəticə göstərmirdilər. İlk baxışdan orta məktəblərdə test üsullu qiymətləndirmənin tətbiqi bir qədər subyektiv görünə bilərdi. Ancaq DİM buraxılış imtahanlarını keçirməyə başlayandan sonra şagirdlərin həmin imtahanlardakı nəticələri ali məktəblərə qəbul imtahanlarında göstərdikləri nəticələrlə uyğunluq təşkil etməyə başladı. Bəlkə də ən mühüm məqam odur ki, DİM-in təcrübəsi və faktlara əsaslanan yanaşma tətbiq etməsi, əksəriyyət tərəfindən etibarlı və obyektiv hesab edilməyən standartlaşdırılmış test imtahanlarına ictimai etimadın bərpa olunmasını sürətləndirib. Bu isə öz növbəsində, illər keçdikcə qəbul imtahanlarında iştirak etmək üçün müraciətlərin sayının artmasına, eləcə də kənd yerlərində aztəminatlı və məcburi köçkün ailələrindən olan şagirdlərin ali təhsil alması istiqamətində geniş imkanlara yol açıb. Standartlaşdırılmış test imtahanına ictimai inamın bərpa olunması ilə test imtahanlarına hazırlıq sənayesi yaranıb və bu, Azərbaycan müəllimlərinin iş imkanlarını genişləndirib.**

**Burada Azərbaycanla bağlı ən mühüm məsələ isə budur: DİM tənqidi siyasi iradənin istənilən növ məntiqli transformasiyada necə mühüm rol oynadığını bizə öz gördüyü işlərlə sübut etdi.**

**Azərbaycanın inkişaf yolu təhsildə ruhlandırıcı və transformasiyalı tarixçələrin mövcud olduğunu bizə öyrədir. Azərbaycanın standartlaşdırılmış test təcrübələrinin transformasiyasında əldə etdiyi uğurun şahidi olduqca ümid edirəm ki, ölkə millətin təhsili və iqtisadiyyat arasında daha geniş əlaqəni uğurla inkişaf etdirəcək".**

Konfransda Böyük Britaniyanın Durham Universitetinin professoru Piter Tims "İlkin qiymətləndirmənin üstünlüyü: ibtidai təhsildə potensialın və inkişafın ölçülməsi" mövzusunda əsas məruzə ilə çıxış edib. O, məruzəsində ilkin təhsildə bilik və bacarıqların səmərəli qiymətləndirilməsini təşkil etməyin zəruriliyini bildirib. Qeyd edib ki, təhsil proqramlarını indikindən daha qətiyyətli şəkildə tərtib etməklə fərdi problemlər yaranmamışdan əvvəl onları müəyyənləşdirib aradan qaldırmaq mümkün olar. Növbəti il ikinci bir qiymətləndirmənin aparılması daha ciddi şəkildə tələbələrin xüsusi ehtiyaclarının müəyyən edilməsinə, onların il ərzində şagird, məktəb və ölkə səviyyəsində hesab, oxu, sosial və fiziki inkişaf sahələri üzrə inkişaf səviyyələrini ölçməyə kömək edəcək. Yetərli səviyyədə olmayan TIMSS (Riyaziyyat və Təbiət Elmləri üzrə Beynəlxalq Qiymətləndirmə Proqramı) və PISA (Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı) kimi təhsil nailiyyətlərinin qiymətləndirilməsi tədqiqatlarına güvənməkdənsə, ilkin qiymətləndirmənin düzgün aparılması bütün təhsil sistemlərinin təsirinin dəyərləndirilməsi üçün təməl rolunu oynayacaq.

Piter Timsin fikrincə, dünyada təhsil sahəsində yüzlərlə ilkin qiymətləndirmənin fəaliyyət göstərdiyi bir dönəmdə niyə bu sahədə böyük irəliləyişləri görmədiyimizi aydınlaşdırmaq ağlabatandır. Cavab isə budur ki, qarşılaşdığımız çağırışlar son dərəcə ciddidir. Bunların sırasında bir neçə əsas olan aşağıdakılardır; uşaqların diqqət yayınıqlığı (qısa konsentrasiyası dövrü), onların çoxunun ilkin təhsilə başlayarkən oxuya və yaza bilməməsi, müvafiq məktəbəqədər tədris planının olmaması, cavabdehlik üzrə testin mənfi nəticələri və uşaqların bilik və bacarıqlarının ibtidai təhsil üzrə ekspertlər tərəfindən dəyərləndirilməsinə qarşı geniş yayılmış narazılıq.

Bu yaşda qısa, lakin daha əhatəli qiymətləndirmə aparılmalıdır. Bu qiymətləndirməni aparan şəxsin kimliyindən asılı olmayaraq prosesin eyni nəticələri olmalı, həm də müxtəlif dillər və mədəniyyətlərlə müqayisə edilə bilən olmalıdır. Həmin qiymətləndirmə prosesi müəllimlərin də rəğbətini qazanmalıdır. Bu məqsədə tam nail olunmasa belə, bu qiymətləndirmə nəyin üzərində çalışmalı olduğumuzu nümayiş etdirir.

Piter Tims irəli sürdüyü fikirləri konkret nümunələrlə əsaslandırıb.

Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusunda 45-ci illik beynəlxalq konfransı sessiyalarla davam edib.

Konfrans çərçivəsində "İbtidai təhsildə test", "Dilin qiymətləndirilməsi", "Qiymətləndirmə sistemləri", "Sinif qiymətləndirməsi", "Qiymətləndirmə fəlsəfələri" mövzularında sessiyalar keçirilib.

Sessiyalarda çıxış edənlər mövzularla bağlı apardıqları araşdırmalardan və təmsil etdikləri ölkələrin təcrübəsindən danışıblar.

Niderlandın Cito təhsilin ölçülməsi institutundan Frans Kleintjes təlim nəticələrini artırmaq üçün şagirdlərin monitorinq sisteminin Kürasaoda tətbiqindən danışıb.

Dövlət İmtahan Mərkəzinin əməkdaşları Məhəmməd Adıgözəlov və İlahə Gülalıyeva "5-6 yaşlı uşaqların intellektual inkişaf səviyyəsini müəyyənləşdirmək üçün testin hazırlanması" mövzusunda çıxış ediblər. Qeyd olunub ki, praktik psixoloqlar üçün metodik ədəbiyyatın əksəriyyətində çox vaxt düzgün sınaqdan keçirilməmiş alətlər yer alır. Digər tərəfdən, bəzi mütəxəssislər və məktəblər uşaqlara diaqnoz qoymaq üçün xarici norma və standartları tətbiq edirlər.

Diqqətə çatdırılıb ki, tədqiqat zamanı mövcud zəka testləri nəzəri və metodoloji təhlil edilib, məktəbdə uşaqların psixoloji problemlərinə aydınlıq gətirilməyə çalışılıb. Araşdırma zamanı məktəb yaşı çatmamış uşaqların zehni inkişafının ümumi qəbul edilmiş quruluşundan, intellektual inkişaf səviyyəsinin hərtərəfli diaqnozu üçün metodologiyadan, valideynlər və müəllimlər üçün ayrıca anketlərdən istifadə edilib, sosial-psixoloji amillər nəzərə alınıb.

"Dil biliklərinin qiymətləndirilməsi" sessiyasında qiymətləndirmədə və rəqəmsal savadda istifadə olunan dilin araşdırılması, qlobal miqyasda ingilis dili və Çin dili standartlarının müqayisəli təhlili istiqamətində müzakirələr aparılıb. Həmçinin sessiyada Kembric Qiymətləndirmə departamentindən Daniel Broker və Dövlət İmtahan Mərkəzindən Vəli Hüseyn "Qiymətləndirmə və qərar qəbulu: ingilis dilinin qiymətləndirilməsi üzrə Kembric və Azərbaycan arasında bilik mübadiləsi və əməkdaşlıq" mövzusunda təqdimat ediblər.

"Qiymətləndirmə sistemləri" sessiyasında Dövlət İmtahan Mərkəzinin əməkdaşı Pərviz Kazımov "Fərdi, institusional və ümummilli qərar qəbulu üçün inteqrasiya olunmuş qiymətləndirmə sistemi ilə əldə edilən məlumatlardan səmərəli istifadə yolları" mövzusunda məruzə ilə çıxış edib. Qeyd olunub ki, Dövlət İmtahan Mərkəzi orta məktəblərin buraxılış imtahanları, universitetlərə qəbul, habelə dövlət qulluğuna namizədlərin seçimi daxil olmaqla kompleks qiymətləndirmə sistemini idarə edir. Qurumun fəaliyyətinin ilk mərhələlərində mərkəzləşdirilmiş imtahan sisteminin yeganə məqsədi universitetlər üçün tələbələrin qərəzsiz seçilməsini təmin etmək olsa da, sonradan fərdi və institusional qərar qəbulu üçün nəhəng məlumat istehsalı platformasına çevrilərək texniki və tədqiqat potensialını artırıb. Platforma namizədlər və təşkilatlar daxil olmaqla bütün maraqlı tərəflərin tələblərini uyğunlaşdırmaq üçün hazırlanıb. Çeviklik, texnologiyaya əsaslanan dizayn və elmi yanaşma, sistemin fasiləsiz və bəzən fərdi və institusional potensialın artırılmasına yönəlmiş müsbət dəyişikliklərin və yeniliklərin hərəkətverici qüvvəsi kimi çıxış etməsinə imkan verir.

Dövlət İmtahan Mərkəzi tərəfindən idarə olunan mütəxəssislər və müəllimlər şəbəkəsi müxtəlif qiymətləndirmə vasitələrini inkişaf etdirir, təhsil müəssisələrinin, dövlət qurumlarının və şəxslərin xüsusi tələblərinə uyğun olaraq qiymətləndirmə prosedurlarını idarə edir. 2016-cı ildən Dövlət İmtahan Mərkəzi dövlət qulluğuna namizədlərin seçilməsini idarə etməyə başlayıb. Bu, ali təhsil səviyyəsində qiymətləndirmənin təsdiqlənməsi və universitet təhsilinin real karyera tələbləri ilə uzlaşdırılması üçün yeni perspektiv açır.

"Sinif qiymətləndirməsi" sessiyasında Azərbaycan Müəllim İnkişaf Mərkəzinin direktor müavini Xədicə Cəfərova "Sinif qiymətləndirmələrindən istifadə etməklə tədris haqqında əsaslandırılmış qərar qəbulu" mövzusunda çıxış edib. Diqqətə çatdırıb ki, yeni qiymətləndirmə sistemini mənimsəmək və faydalarını artırmaq üçün dəqiq konsepsiya hazırlanmalıdır. Bu sənəd sinif qiymətləndirmələrinə konseptual səviyyədə baxır və tədris praktikasının təkmilləşdirilməsi məqsədilə qərar verməkdə rolunu təhlil edir. Beləliklə, diaqnostik və formativ qiymətləndirmələrə dinamik baxılır (məlumatların toplanması, təfsiri və bundan sonra nə ediləcəyi barədə qərar); summativ qiymətləndirməyə statik baxılır (tələbənin akademik fəaliyyətinin vahid, dövlət standartları və s. baxımından qiymətləndirilməsi).

"Qiymətləndirmə fəlsəfələri" sessiyasında toxunulan problemlərdən biri "IQ testlərində məntiq sualları nə qədər məntiqlidir?" mövzusu olub. Bu barədə çıxış edən ADA Universitetindən Yaqub Əliyev sualların determinist (bilik və bacarıqlar əsasında həll edilə bilən) və ehtimal olunan (şansın olması ilə həll edilə bilən) növlərinə diqqəti çəkib. Bildirib ki, şans elementləri olan məntiq suallarından qəbul və ya buraxılış imtahanlarında, işə qəbul testlərində istifadə etmək düzgün deyil.

Günün davamında "Qiymətləndirmənin yoxlanılması sistemləri, "Qiymətləndirmənin tərtib olunması", "İbtidai təhsildə test", "Müəllimlərin sertifikasiyası", "Qərar qəbuletmə" mövzularında sessiyalar keçirilib.

Bakı Avropa Liseyinin direktoru Zülfiyyə Veysova "Müəllim standartları rubrikaları əsasında müəllim peşə inkişafının müəyyənləşdirilməsi" mövzusunda məruzə edib. O, 2014-2015-ci illərdə Azərbaycanda ilk dəfə olaraq müəllim standartları hazırlandığını xatırladıb. Diqqətə çatdırıb ki, hər alt standartlarla əlaqəli rubrikalar müəllimlərə peşəkar inkişafını dörd səviyyəyə görə qiymətləndirməyə imkan verir: az təcrübəli, təcrübəli, peşəkar və lider. Rubrikalardan istifadə edərək müəllimlər karyera pillələrində təcrübələrini qiymətləndirmək və həmkarlarından rəy almaq üçün əsas sahələri müəyyən edə bildilər. Tədqiqat göstərdi ki, hazırlanmış rubrikalardan həm müəllimin peşə səviyyəsini qiymətləndirmək, həm də peşəkar inkişaf ehtiyaclarını müəyyən etmək, müəllimin məktəb rəhbərliyi və ya hökumət tərəfindən dəstəklənə biləcəyi ən vacib sahələri aydınlaşdırmaq üçün istifadə edilə bilər.

Sessiyalarda "Dəyişən məlumatlar: qiymətləndirmələrin qiymətləndirilməsi üçün çərçivə", Avtomatik qiymətləndirmə sistemini necə dəyərləndirmək olar?", "İmtahan keyfiyyətinin təmin olunmasına dair RCEC təşkilatının dəyərləndirmə sistemi", "Yüksək səviyyə üçün çoxmərhələli testin hazırlanması və inkişafı", "PISA 2021 və ondan kənarda: yaradıcı düşüncə üçün innovativ təlim və qiymətləndirmə həllərinin dizaynı və inkişafı", "Oxu üzrə birinci sinif skrininq testi üçün predmetlər hazırlanması: baza testi", "Kompüterləşdirilmiş ssenari əsaslı qiymətləndirmədə fərqli test kontekstinin rolu" və digər mövzularda məruzələr dinlənilib.

Konfransın işıqlandırılmasında AZƏRTAC Dövlət İmtahan Mərkəzinin rəsmi media tərəfdaşıdır. IAEA-nın üzvü olan Dövlət İmtahan Mərkəzi bu təşkilatın keçirdiyi tədbirlərdə mütəmadi iştirak edir. IAEA 1975-ci ildən başlayaraq hər il bu cür konfranslar keçirir. Azərbaycan hələ 2007-ci ildə MDB ölkələri arasında IAEA tərəfindən belə bir konfrans keçirilən ilk ölkə olub.

IAEA 2019 beynəlxalq konfransı sentyabrın 27-dək davam edəcək.

# Prezident İlham Əliyevin siyasətində prioritet istiqamətlər milli maraqlarımızın qorunması və əhalinin rifahının yüksəlməsidir



Azərbaycanın dinamik inkişafı və gündən-günə qüdrətinin artması Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin və onun xalq tərəfindən dəstəklənməsinin nəticəsidir.

Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib. Deputat qeyd edib ki, bu inkişaf əvvəlcədən müəyyənləşdirilmiş strategiya və xüsusi proqramlar vasitəsilə dövlət siyasəti kimi gerçəkləşdirilir. Heç şübhəsiz ki, bu zaman önə çıxan ən prioritet istiqamətlər milli maraqlarımızın qorunması və əhalinin rifah halının yüksəldilməsidir. Qeyd etmək lazımdır ki, yaşadığımız mürəkkəb geostrateji regionda milli maraqlara söykənən müstəqil siyasət həyata keçirmək heç də asan məsələ deyil. Çünki müstəqil siyasət həyata keçirmək və dövlətçilik maraqlarını daim öndə tutmaq, ilk növbədə, güclü iqtisadiyyatla əlaqəli olur. Azərbaycan məhz hər şeydən əvvəl iqtisadi müstəqilliyini qura bilib və hazırda sənayeləşmə dərəcəsi xeyli yüksək olan şaxələndirilmiş rəqabətqabiliyyətli iqtisadiyyata malikdir. Bəzən ölkəmizə qarşı müxtəlif təzyiq kampaniyalarının təşkil olunması da elə bu amillərlə bağlıdır. Çünki milli maraqlarımızdan əsla güzəştlər vermirik və bu, bəzi rəqiblərimizi xeyli narahat edir.

Hikmət Babaoğlu qeyd edib ki, hazırda Azərbaycan həyata keçirdiyi müxtəlif təyinatlı regional və qlobal miqyaslı layihələrlə beynəlxalq münasibətlərin mühüm aktorlarından birinə çevrilib. Enerji sektorunda əldə edilən nailiyyətlər və həyata keçirilən meqalayihələr Avropanın enerji xəritəsini dəyişən xüsusi alternativ layihələr kimi, bu sahədə təhlükəsizliyi təmin edən vasitə olaraq nəzərdən keçirilir. Şübhəsiz, söhbət təkcə Avropanın enerji təhlükəsizliyindən deyil, həm də Azərbaycanın təhlükəsizliyindən gedir ki, bu da qarışlıqlı maraqların uzlaşdırılmasının optimal düsturu kimi ortaya çıxır. Əlbəttə, bütün bunlar, nəticə etibarilə, müharibə vəziyyətində olan Azərbaycanın hərbi-siyasi qüdrətini artırmaqla yanaşı, sosial problemlərin həlli üçün də yaxşı şərtlər formalaşdırır. Ölkəmizdə həyata keçirilən kompleks sosial islahatların maliyyə mənbəyi də, onun uğurlu olmasının səbəbi də karbohidrogen ehtiyatlarımızdan və digər iqtisadi resurslarımızdan səmərəli istifadənin təşkili ilə bağlıdır ki, bunu da Prezident İlham Əliyevin milli maraqlarımıza söykənən strateji siyasəti ilə əlaqələndirməliyik.

# Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan güclü, dinamik inkişaf edən dövlətə çevrilib

*Ekspertlər hesab edirlər ki, xalqımız Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə mütləq inam və etimad bəsləyir və bu, xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyini göstərir*



Azərbaycan beynəlxalq müstəvidə güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin və davamlı inkişafın təmin olunduğu ölkə kimi tanınır. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında uğurla, uzaqgörənliklə reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Milli inkişaf modelinin uğurla tətbiq olunması və hədəflənən nəticələrin əldə olunması, siyasi, hüquqi və sosial-iqtisadi islahatların davamlı olaraq həyata keçirilməsi, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsi və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir. Bütövlükdə, Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü, prinsipial, milli maraqlara əsaslanan siyasət nəticəsində Azərbaycan güclü, dinamik inkişaf edən, yüksək beynəlxalq nüfuza malik dövlətə çevrilib.



***Sevinc Fətəliyeva:*** *Neftdən gələn gəlirlərdən səmərəli istifadə olunması nəticəsində Azərbaycan qüdrətli dövlətə çevrilib*



***İlham Məmmədov:*** *Sosial siyasət həmişə dövlətimizin başçısının siyasətinin əsas prioritet istiqamətlərindən olub*

Bütün bunların nəticəsidir ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyir, bu siyasətə alternativ görmür, əldə olunan uğurları yüksək qiymətləndirir. Təsadüfi deyil ki, ictimai rəyin öyrənilməsi üzrə müxtəlif sosioloji tədqiqat mərkəzlərinin Azərbaycan əhalisi arasında keçirdiyi sorğular da ölkəmizdə vətəndaşların Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə mütləq inam və etimad bəslədiklərini, xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyini göstərir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib ki, neftdən gələn gəlirlərdən səmərəli istifadə olunması nəticəsində Azərbaycan qüdrətli, özünü təmin edən dövlətə çevrilib. Müasir müstəqil Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, bütün sahələrdə qazanılan parlaq nailiyyətlər ölkəmizin qarşısında yeni perspektivlər açır. S.Fətəliyeva bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət qarşıya qoyulan strateji əhəmiyyətli hədəflərə çatmağa imkan verir, ölkənin sosial-iqtisadi inkişafının davamlılığını təmin edir. Həmçinin aşağı səviyyədə saxlanan dövlət borcu ümumi daxili məhsulun cəmi 19 faizini təşkil edir, valyuta ehtiyatlarımız isə xarici borcumuzdan beş dəfə artıqdır. Onun sözlərinə görə, xüsusilə də neft gəlirlərinin strateji sahələrə yönəldilməsi nəticəsində milli iqtisadiyyatın dinamik inkişafı təmin edilib, qeyri-neft sektorunun tərəqqisinə nail olunub. Bir sözlə, 20 sentyabr 1994-cü il tarixində "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanan yeni neft strategiyası Azərbaycanın sürətli inkişafına şərait yaradıb. Neftdən gələn gəlirlərdən səmərəli istifadə olunması nəticəsində ölkədə geniş abadlıq-quruculuq işləri aparılıb, paytaxt Bakının və regionlarımızın siması müasirləşib, əhəmiyyətli dərəcədə dəyişilib, yüksək infrastruktur təminatı yaradılıb, ölkənin maliyyə imkanları və valyuta ehtiyatları artıb və Azərbaycan qüdrətli, özünü təmin edən dövlətə çevrilib. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, bu gün Azərbaycan yolları keyfiyyətinə görə dünya miqyasında 34-cü yerdədir. Qazlaşdırma 96 faizdir, əhalinin 75 faizi isə daimi içməli su ilə təmin edilir və bu proses davam etdirilir. Sosial infrastruktur tamamilə yenidən qurulub, 3200-dən çox məktəb, 640-dan çox xəstəxana tikilib və təmir olunub.

**"Ötən müddət ərzində Azərbaycanda güclü sosial siyasət həyata keçirilib, vətəndaşlar dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunub. Ölkəmizdə inqilabi xarakterli sosial islahatlar həyata keçirilir. Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yaxşılaşması üçün həyata keçirdiyi işlərin miqyası getdikcə genişlənir. Yüz minlərlə köçkünə yeni evlər, şəhid ailələrinə, müharibə veteranlarına isə güzəştlər, müavinətlər, mənzillər, minik avtomobilləri verilib. Bütövlükdə, dövlət başçısının rəhbərliyi altında aparılan islahatlar ölkəmizin "Doing Business 2019" hesabatında yeni rekorda imza artmasına imkan yaradıb. Azərbaycan 10 ən islahatçı ölkə siyahısında qərarlaşıb və MDB ölkələri arasında lider mövqe tutur. Dünyada etibarlı tərəfdaş kimi tanınan, praqmatik xarici siyasət həyata keçirən Azərbaycan, eyni zamanda, beynəlxalq əməkdaşlıq, enerji sahəsində böyük uğurlar əldə edib. Azərbaycanın liderliyi və təşəbbüsü ilə mühüm enerji, nəqliyyat-kommunikasiya layihələri həyata keçirilir, yeni əməkdaşlıq platformaları yaradılır. Beynəlxalq münasibətlər sistemində güc mərkəzləri kimi xarakterizə edilən subyektlər - milli dövlətlər respublikamızla əməkdaşlığın inkişaf etdirilməsində maraqlıdırlar. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu xarici siyasət kursunun real nəticələridir",** - deyə S.Fətəliyeva vurğulayıb.

**"Prezident İlham Əliyevin siyasətinin əsasında insan amili dayanır".** Bu fikri isə Milli Məclisin deputatı İlham Məmmədov deyib. Millət vəkili qeyd edib ki, sosial siyasət həmişə dövlətimizin başçısının siyasətinin əsas prioritet istiqamətlərindən olub: **"Görülən işlər, qarşıya qoyulan məqsədlər, hədəflər, ölkənin iqtisadi, siyasi gücünün artması son nəticədə insan amilinin inkişafına, insanlarımızın azad və firavan yaşamasına hesablanıb".**

Onun sözlərinə görə, Azərbaycanda islahatlar uğurla davam etdirilir: **"Bu gün dünya dəyişir. Artıq elə bir zaman gəlib ki, haqsız haqlıya güc gəlir, güclü gücsüzə zor tətbiq edir və bütün bunlar beynəlxalq müstəvidə bir gərginlik yaradıb. Belə bir vəziyyətdə ölkəni qorumaq, inkişaf etdirmək və bütün bu inkişafın nəticəsini məhz insan amilinə yönəltmək, əlbəttə ki, bir qəhrəmanlıq nümunəsidir, xalqına, millətinə böyük sevgidən irəli gələn bir amildir".**

İ.Məmmədov söyləyib ki, Prezident İlham Əliyev ölkə vətəndaşlarına böyük qayğı ilə yanaşır: **"Cənab Prezidentin şəhid ailələri ilə görüşü, şəhid vərəsələrinə birdəfəlik ödənişlərin verilməsi, pensiyaların artırılması, minimum əməkhaqqının yaşayış minimumuna çatdırılması insanlarımızın sosial rifahının daha da yüksəlməsinə mühüm təsir edəcək, gələcəkdə sosial-pensiya təminatının yaxşılaşmasına xidmət edəcək. Bunlar kiçik məsələlər deyil".**

İ.Məmmədov deyib ki, bütün bu tədbirlərin həyata keçirilməsi Azərbaycanın iqtisadi inkişafı sayəsində mümkün olur: **"Möhtərəm Prezidentimizin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan iqtisadiyyatı inkişaf edir və hər bir vətəndaş bu inkişafdan bəhrələnir, çünki bütün siyasətin əsasında insan amili dayanır".**

**Nardar BAYRAMLI**

# Bu dövlət hamımızındır və onu qorumaq da hamının borcudur

***Milli Məclisin deputatı Elşən Musayev www.yap.org.az saytına müsahibə verib:***



**- Elşən müəllim, hazırda gündəmin əsas müzakirə mövzularından biri xaricdə mühacir adı ilə fəaliyyət göstərən dairələrin ölkəmizə qarşı apardıqları şər-böhtan kampaniyası ilə bağlıdır. Sizcə, bu çirkin kampaniyanın əsasında hansı amillər dayanır?**

- İlk amil, ilk səbəb odur ki, Azərbaycanın uğurları bir çox qüvvələri qane etmir və bu uğurları qəbul etmək istəməyən, onu həzm edə bilməyən həmin xəbis xislətli qüvvələr öz daimi fəaliyyətlərindədirlər. Bu proses həmişə olub və indi də estafet davam edir. Azərbaycan inkişaf etdikcə, uğurlarımız artdıqca məlum düşmənlərin, bizi sevməyən qüvvələrin yönləndirdiyi proseslər də artan dinamika üzrə inkişaf edəcək. Hazırda mühacir adı ilə aldığı qrantların miqdarını çoxaltmağa çalışan, ölkədəki radikal stimulvericilərinə daha böyük həcmdə pul-para, pay-pürüş göndərməyə səy göstərən anti-milli ünsür komandası formalaşıb. Təbii, haralardansa da himayə olunurlar və proqramlı fəaliyyət göstərirlər. Son dərəcə çirkin kampaniyadır, amma nə təəssüf ki, həmin kampaniya vicdanını, ləyaqətini, şərəfini itirən insanlar tərəfindən ardıcıl mərhələlər üzərindən davam edir. Kənardan görünə bilər ki, bu hakimiyyətə, iqtidara qarşıdır. Xeyr! Bu birmənalı şəkildə dövlətə, dövlətçiliyə, azərbaycançılığa, mentalitetə qarşıdır. Həmin kütlənin dərdi xalq və dövlət deyil. Bu gün şər və iftira fəaliyyətini davam etdirən ünsürlərin xalqa və dövlətə azacıq da olsa aidiyyəti yoxdur. Sadəcə şəxsiyyət vəsiqələrində və pasportlarında azərbaycanlı sözü yazılıb. Vəssalam. Vidadi kimi tərbiyəsiz millətçi, xalq fədaisi ola bilərmi? Bu psixoz, narkoman dövlətin bu gününü, sabahını düşünə bilərmi? Əsla və əsla! Nə avantürist, nə söyüş ritorikasına köklənən, nə əslindən, nəslindən, kökündən, şəcərəsindən xəbəri olmayan varsa əlinə bir "noutbuk" alıb, internetə qoşulub, kanal açıb ölkəyə, ölkənin ləyaqətli insanlarına qarşı kənardan hədyan yağdırır. Biri adını bloqqer qoyub, biri veriliş aparıcısı, biri mühacir, biri məzlum. Absurddur. Hər mənada. Ən böyük absurd isə bu yaramazların hələ də məsuliyyətə cəlb edilməmələri, rahat formada dolanmaları, gəzmələridir.

Azərbaycan dövlətində hansısa əcnəbi öz ölkəsinin istənilən vətəndaşına qarşı belə informasiya terroru, mənəvi terror edə bilərmi? Bu mümkündürmü? Əsla mümkün deyil. Dərhal tədbir görülər. Və nəinki Azərbaycanda, özünə, qanunlarına hörmət qoyan istənilən ölkədə. Deməк ki, bizə demokratiyadan dərs keçmək həvəsinə düşən bəzi ölkələr ilk öncə öz qanunlarının aliliyini qorumalı, ilk öncə beynəlxalq hüququn ana prinsiplərini gözardına almamalı, Konvensiya tələblərinə hörmətlə yanaşmalı, ondan sonra uca səslə, bərkdən hansısa məhkəmə qərarlarının icra faizi haqqında müzakirələrə qoşulmalıdırlar, məruzəçi təyin etməlidirlər, demokratiya söhbətləri aparmalıdırlar. Görünən budur ki, Azərbaycan özü hazırda hamıya demokratiyadan dərs keçər. Ən azından bizə demokratiya haqqında uzun-uzadı nağıllar danışanlara. Daha doğrusu, belə bir eşqə düşənlərə.

**- Narahatlıq doğuran bir məqam da mühacir müxalifətin xaricdəki müəyyən dairələrin maraqlarına xidmət etməsidir. Bu fakt nə dərəcədə təhlükəlidir?**

- Müxalifət, daha dəqiqi, radikal müxalifət öz ampluasındadır. Dəyişən bir şey yoxdur. Əgər Əli Kərimli adında siyasətçi Vidadi İsgəndərlinin hərəkətlərinə dolayı yolla da olsa haqq qazandırırsa, bu yolu dəstəkləyirsə, Qənimətin dili, Natiqin ifası ilə təhqirin, söyüşün, şərin, böhtanın ən yüksək həddini özünə prioritet seçirsə, bundan sonra heç nəyə təəccüblənmək lazım deyil. Xislətləri və mahiyyətləri budur. Təbii, qorxulu tendensiyadır. Belə riyakarların əlində imkan olsa ölkənin taleyini hərraca qoyub, onu keçi qiymətinə satarlar. Çünki daim sata-sata gəliblər. Düzdür, bəzən alıcıları olmayıb, amma həmişə satmağa nələrisə olub. Öz liderini satan adamın sata bilməyəcəyi heç nə yoxdur. Bu aksiomdur! Əli Kərimli və onun tayları həmin kateqoriyadandır.

**- Ölkəmizin daxilindəki "beşinci kolon"un nümayəndələri də mühacir müxalifəti ilə sinxron fəaliyyət göstərir. Bu fakt onların eyni mərkəzdən idarə olunduğunu göstərirmi?**

- Onlar eyni komandadır. Nəinki sinxrondurlar, hətta bir can, bir qan, bir gendəndirlər. Üstəlik, ümumi maraqları üçün bütün mental dəyərlərdən, əsl həqiqətlərdən, gerçəklikdən uzaq durublar. Durmağa hazırdırlar! Təsəvvür edin, o gün Qənimətin verilişində Elçibəy açıq şəkildə təhqir olundu. Biz Elçibəyin müdafiəsinə qalxdıq, amma Kərimli qalxmadı, Qənimət cınqırığını da çıxarmadı. Niyə? Bəs Elçibəy axı sizin atanız, müəlliminiz, rəhbəriniz idi? Deyim niyə. Çünki indiki mərhələdə Əli Kərimliyə və onun silahdaşlarına hansısa başqa yaramaz ilə konflikt sərf eləmir. Bir daha qeyd edirəm: ümumi maraqlar var. Ona görə. Elə bir hala, vəziyyətə gəliblər ki, Leyla Yunus, Xədicə İsmayıl, Sevinc Osmanqızı bunların ideoloqlarına çevriliblər. "5-ci kolon"un nə ünsürü varsa onların beynindən, düşüncələrindən qidalanırlar. Hələ baxarsız, bir azdan internetdəki verilişlərinə Əlikramı-fılan da çıxaracaqlar. Bəli, bu millətə, dövlətə düşmən olan kim varsa bunların dostudur. Yəni məlum qüvvənin dost qəbul etmə yaradıcılığında ana xətt budur. Baxmayaraq ki, hər gün ifşa olunurlar, həm də faktlarla ifşa olunurlar - yenə dayanmırlar. Çünki yaramazlığın dayanacağı, durma yeri, əyləc basma nöqtəsi yoxdur, olmur. Çünki yaramazlıq abstrakt anlayışdır. Çünki yaramazın həyat kredosu, fəlsəfəsi tükənməyən və qəbrə qədər davam edən pisliklərin məcmusundan ibarətdir.

**- Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi ilə bağlı ölkəmizdəki siyasi partiyaların və vətəndaş cəmiyyətinin həmrəyliyi nə qədər vacibdir?**

- Bu fəaliyyət labüddür və var. Amma söhbət aparılan insanlar elə sadəcə partiya sədridir deyə masaya dəvət olunmamalıdır. O gün dəyirmi masada müxalifət funksionerinin dilindən gördünüzmü hansı fikir səsləndi? Demə, "üsyan hüququ" varmış, amma bizim xəbərimiz yoxmuş. Belə adamlarla nə müzakirə, hansı müzakirə aparmaq olar? Təbii, radikal deyil, konstruktiv müxalifət qanadında bizimlə müəyyən məsələlərdə fərqli düşünən, fəqət millətcil, dövlətcil olan insanlar var. Qüdrət Həsənquliyev də müxalifətdir, düşüncəsini açıq şəkildə dilə gətirən adamdır, bir çox məsələlərdə iqtidarla eyni fəlsəfəni bölüşmür. Amma ləyaqəti, şərəfi, mənliyi həmişə üstündədir, əsl dövlət cəfakeşidir, əsl kişi obrazına sahibdir. Masada belə ləyaqətli müxalifətlə üzbəüz oturmaq lazımdır, polemika, müzakirə onlarla aparılmalıdır. Ayrıca, çox doğru buyurdunuz ki, vətəndaş cəmiyyətinin də bu istiqamətdə böyük hərəkətliliyinə ehtiyac var. Bu fikirlə ikiəlli razıyam. Çünki hazırda siyasi kontingentlə bərabər ictimai yük daşıyan insanların da sayı olduqca çoxdur. Mən sizə tam səmimi deyim ki, sosial şəbəkələrdə, cəmiyyətdə öz sözünu, əsas da doğru sözü söyləyən insanların böyük əksəriyyəti məhz ictimai fəallardır. Onların içində vətənpərvər, millətini sevən insanların sayı yetərincədir. Yəni, sözümün canı budur ki, fərq etməz kim hansı cəbhədədir, dövlət marağını şəxsi maraqlardan üstün tutan hər kəsi mövzu ətrafında birləşdirmək və xaricdə ölkəmizə qarşı planlanan məkrli ssenarilərə qarşı səfərbər etmək lazımdır. Bu dövlət hamımızındır. Onu qorumaq da hamının borcudur.

# Naqif Həmzəyev gənc partiya fəalları ilə görüşüb





Yeni Azərbaycan Partiyası (YAP) Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev fəal gənclərlə görüşüb.

Tədbiri açan Naqif Həmzəyev bildirib ki, hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəslə bağlayır. Gənclər cəmiyyətin ən dinamik zümrəsi olaraq ölkədə baş verən bütün proseslərin mərkəzində dayanırlar. Ölkəmizdə də gənclər tarixin bütün dövrlərində inkişafın hərəkətverici qüvvəsi olublar. Onlar hər zaman Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak ediblər. Bu gün dövlət gənclər siyasətinin ölkədə uğurla həyata keçirilməsi nəticəsində gənclərin önündə böyük qapılar, yollar açılıb. Gənclərimiz bu imkanlardan layiqincə yararlanır, həm öz inkişaflarını təmin edir, həm də dövlətimizin mənafeyini etibarlı şəkildə müdafiə edən layiqli vətəndaş kimi formalaşmaq üçün ciddi iradə ilə çalışırlar.

Fərəhli haldır ki, bu günün gəncləri ölkə başçısı, partiyanın Sədri İlham Əliyevin ətrafında sıx birləşib, Vətənimizin tərəqqisi, dövlətçiliyimizin möhkəmləndirilməsi, çiçəklənməsi naminə hər bir sahədə böyük fəallıq göstərirlər.

Fəal gənclərdən Sənubər Kərimova, Aysel Həsənova, Sevda İsmayılova, Nərminə Cəmşidli və Oktay Məmmədov çıxış edərək, onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirib, dövlət, xalq qarşısında öz vəzifə və məsuliyyətlərini yaxşı dərk etdiklərini bildiriblər.

Gənclər tədbir iştirakçılarını əmin ediblər ki, bundan sonra da Heydər Əliyev ideyalarına sadiq qalacaq, verilən tapşırıq və göstərişləri qürurla yerinə yetirəcəklər.

Maraqlı diskussiya şəraitində keçən görüşdə gənclərin problemləri dinlənilib, onları maraqlandıran suallar ətraflı cavablandırılıb, təklifləri ətrafında müzakirələr aparılıb.

# Hakimliyə namizədlərlə yazılı imtahan keçiriləcək

Hakimliyə namizədlərlə test imtahanının ikinci fazası - yazılı imtahan sentyabrın 28-də saat 11:00-da Dövlət İmtahan Mərkəzinin binasında (Bakı şəhəri, Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi 28) keçiriləcək.

Hakimlərin Seçki Komitəsindən AZƏRTAC-a bildiriblər ki, namizədlər "İmtahana buraxılış vərəqəsi"ni sentyabrın 25-dən bütün iş vaxtı ərzində şəxsiyyət vəsiqəsini təqdim etməklə Hakimlərin Seçki Komitəsindən (Bakı şəhəri, Yasamal rayonu, Z.Xəlilov küçəsi, 540-cı məhəllə) almalıdırlar.

İmtahan yerinə saat 10:00-dan gec olmayaraq gəlmək lazımdır. Namizədlər imtahana gələrkən şəxsiyyət vəsiqəsini və "İmtahana buraxılış vərəqəsi"ni mütləq təqdim etməlidirlər. Əks təqdirdə namizəd imtahana buraxılmayacaq.

Əlaqə telefonları: (012) 510-22-97; (012) 510-21-62.

# DOST mərkəzləri müasir Azərbaycanın siması kimi

Hüquqi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda digər istiqamətlər kimi, əhalinin həyat şəraitinin davamlı olaraq yaxşılaşdırılmasını hədəfləyən sosial siyasət də ciddi konseptual yanaşmalar və möhkəm hüquqi baza əsasında reallaşdırılır. Bunun nəticəsidir ki, 2019-cu il ölkəmizin tarixinə xüsusi olaraq sosial inkişaf ili kimi düşməkdədir. Ümumiyyətlə, ölkəmizdə ötən il anonsu verilən böyük sosial paket cari ildə intensiv şəkildə həyata keçirilir. Bu ilin əvvəlindən Prezident İlham Əliyevin imzaladığı müvafiq Fərman və sərəncamlar əsasında reallaşdırılan sosial islahatlar çərçivəsində 300 mini əlil şəxslər olmaqla 600 min vətəndaşın müavinət və təqaüdlərində orta hesabla 100 faiz, 500 minə qədər məcburi köçkünün müavinətində 50 faiz artımlar edilib, 100 mindən artıq tələbənin təqaüdləri ciddi şəkildə artırılıb, problemli kreditlərlə bağlı məsələ vətəndaşların mənafeyi nəzərə alınmaqla həllini tapıb, bəzi çoxmənzilli binaların istismarına icazə verilməsi qaydaları sadələşdirilib. Respublikamızda müvafiq kateqoriyadan olan şəhid ailələrinin vərəsələrinə birdəfəlik ödəmələrin verilməsi təmin edilir.

Çox böyük önəm daşıyan sosial təşəbbüslərdən biri də minimum əməkhaqqının və minimum pensiyaların artırılması ilə bağlıdır. Respublikamızda sentyabrın 1-dən etibarən minimum əməkhaqqı cari ildə ikinci dəfə artırılıb. Dövlət başçısının “Minimum aylıq əməkhaqqının artırılması haqqında” 2019-cu il 18 iyun tarixli Sərəncamına əsasən minimum əməkhaqqı 180 manatdan 250 manata çatdırılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiqlədiyi “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ilə ölkəmizdə əmək pensiyasının minimum məbləği 2019-cu il oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılacaq. Bundan əvvəl minimum pensiya 2019-cu il martın 1-dən 116 manatdan (bir sıra kateqoriyalar üzrə 80 manatdan) 160 manata çatdırılmışdı və həmin artım 233 min vətəndaşı əhatə etmişdi. Yeni qanunla pensiyanın minimum məbləğinin 200 manata çatdırılması isə 660 min nəfər pensiyaçını əhatə edəcək.

Ümumiyyətlə, sosial dövlət olan Azərbaycanda bu gün əhalinin sosial rifahının daha da yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılması istiqamətində davamlı tədbirlər görülür. Təbii ki, bu zaman ölkəmizin müsbət reallıqları, iqtisadi potensialı, getdikcə artan maliyyə imkanları və əlbəttə, qabaqcıl dünya təcrübəsi mütləq nəzərə alınır. Bütün bunlar da Azərbaycanın sosial siyasətinin səmərəliliyini artırır.

Xüsusi olaraq vurğulanmalıdır ki, respublikamız BMT-nin “Əlillərin hüquqları haqqında”, “Uşaq hüquqları haqqında”, “Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” konvensiyalarını, Avropa Şurasının “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiyasını, Avropa Sosial Xartiyasını ratifikasiya edib, “Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi haqqında” Ümumdünya Bəyannaməsinə qoşulub. Bəhs olunan beynəlxalq sənədlərdən irəli gələn öhdəliklərin daha səmərəli icrasını təmin etmək məqsədilə sosial xidmət sisteminin formalaşdırılması istiqamətində milli siyasəti, sosial inkişafın mahiyyətini və tənzimləmə mexanizmlərini özündə əks etdirən “2020-2026-cı illərdə Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair Milli Strategiya” hazırlanıb. Milli Strategiyada əhalinin bütün həssas qruplarına göstəriləcək sosial xidmətlərin kəmiyyət və keyfiyyətinin artırılması, xidmətlərə əlçatanlığın təmin edilməsi və sosial səmərəlilik prinsiplərinin gerçəkləşdirilməsi istiqamətində genişmiqyaslı tədbirlərin həyata keçirilməsi hədəf kimi nəzərdə tutulub.






Eyni zamanda, Azərbaycanın dərinməzmunlu sosial siyasətində institusional mexanizmlərin davamlı olaraq təkmilləşdirilməsi xətti mühüm yer tutur. Ölkəmizdə Prezident İlham Əliyevin sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir. Dövlətimizin başçısının “Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2018-ci il avqustun 9-da imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin məqsədi də məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir. DOST Agentliyinin yaradılması Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, “bir pəncərə”dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir.

Yeri gəlmişkən, 2019-cu il mayın 9-da Bakının Yasamal rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin və ilk DOST mərkəzinin inzibati binasının açılış mərasimi olub. Açılış mərasimində iştirak edən Prezident İlham Əliyev bildirib ki, **“Növbəti illərdə bu agentliyin fəaliyyətinin genişləndirilməsi əminəm ki, vətəndaşlar tərəfindən də çox yüksək qiymətləndiriləcək. Beləliklə, bu sahə ilə bağlı bizim siyasətimiz daha da geniş miqyasda və məqsədyönlü şəkildə icra ediləcəkdir. Sosial sahə hər bir ölkə üçün böyük önəm daşıyır. Azərbaycanda da bu sahəyə böyük diqqət göstərilir. Bizim siyasətimiz sosialyönümlü siyasətdir”.**

Qeyd edək ki, Bakıda fəaliyyətə başlayan ilk DOST mərkəzində xidmətin asanlaşdırılması məqsədilə elektron lövhələr və məlumat köşkü yaradılıb. Nazirliyin aidiyyəti qurumlarının fəaliyyəti mərkəzdə əlaqəli şəkildə təmin edilib. Əlilliyi olan şəxslər üçün lazımi şərait yaradılıb. Xidmətlər vahid standartlar əsasında və bir-birinə inteqrasiya olunmuş şəkildə elektron müstəvidə təqdim olunur. DOST mərkəzlərində proaktiv xidmətlər də göstərilir, vətəndaşlara bu və ya digər sosial hüquqları barədə məlumat verilir.

İlk DOST mərkəzi gün ərzində 350 vətəndaşı qəbul etmək imkanına malikdir. Burada “Pensiya və sosial sığorta”, “Sosial müavinətlər və təqaüdlər”, “Əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat”, “Sosial xidmətlər və övladlığa götürmə məsələləri”, “Əmək münasibətləri”, “Məşğulluq xidmətləri”, “Sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri”, “Bank və notarius xidmətləri” də var. Beləliklə, mərkəz vətəndaşların nazirlik üzrə bütün xidmətlərdən “bir pəncərə”yə müraciət edib və “bir pəncərə”dən faydalanmasına imkan verir.

Hazırda dünya təcrübəsində oxşar layihələr olsa da, DOST mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 126 xidmətin “bir pəncərə”dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən nadir layihədir. Agentlik DOST mərkəzləri vasitəsilə “bir pəncərə” prinsipi ilə 2,8 milyon şəxsə xidmət göstərəcək. Agentliyin 2019-2025-ci illərdə Bakıda və ölkəmizin regionlarında 31 DOST mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub. Prezident İlham Əliyev bildirib ki, DOST mərkəzləri müasir Azərbaycanın simasını əks etdirir: **“Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək”.**

Ölkəmizdə yaradılan DOST mərkəzinin timsalında sosial xidmətlərin asanlaşdırılmasını, əlçatanlığın təmin olunmasını görürük və bu da yüksək vətəndaş məmnunluğu yaradır. Fəaliyyət göstərdiyi qısa müddətdə 1 saylı DOST mərkəzinə 30000-dən çox vətəndaş müraciətinin qeydə alınması da bunları təsdiqləyir. Eləcə də mərkəzdə xidmətlərin göstərilməsi prosesi də vətəndaş məmnunluğu prinsipinə uyğun qurulub. Son məlumatlara əsasən, vətəndaşların DOST mərkəzindən tam məmnunluq səviyyəsi 93 faizdən artıqdır.

Vurğulanmalıdır k, DOST Agentliyi ölkə vətəndaşlarının məşğulluq səviyyəsinin artırılması işinə də öz töhfəsini verir. Belə ki, verilən məlumata əsasən, 2019-cu ilin yanvar-avqust aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin aktiv məşğulluq tədbirləri nəticəsində 60 475 nəfər münasib işlə təmin olunub. Bu göstərici ötən ilin müvafiq dövrünə nisbətən 45,6 faiz çoxdur. Xüsusilə Prezident İlham Əliyevin təşəbbüsü əsasında hazırlanaraq icra olunan “İşsizin DOSTu” proqramı işsiz və işaxtaranların səmərəli məşğulluğunun təminatında önəmli rol oynayıb. Nazirliyin tabeliyindəki DOST Agentliyinin “DOST İş Mərkəzi” tərəfindən proqram çərçivəsində cari ilin 8 ayında 38 min iş yeri yaradılıb, 40 mindən çox vətəndaşa ödənişli ictimai işlərə göndəriş verilib. Proqram çərçivəsində işsiz və işaxtaranların əmək müqaviləsi əsasında ödənişli ictimai işlərlə təminatı həyata keçirilib.

**Nardar BAYRAMLI**

**Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim etmək üçün**

# Həştərxanda V Xəzər Mediaforumu açılacaq

Sentyabrın 24-də Rusiyanın Həştərxan şəhərində V Xəzər Mediaforumu açılacaq.

Həştərxan vilayəti qubernatoru administrasiyasının mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, öz regionlarında media sahəsinin formalaşmasında fəal iştirak edən bütün Xəzəryanı ölkələrin nümayəndələri bu platformada səmərəli dialoq aparacaqlar.

Artıq beşinci dəfədir keçirilən forum jurnalistlərin təcrübə mübadiləsi platformasına çevrilir. Onun sayəsində Xəzər regionu ölkələrinin vahid informasiya məkanı da yaradılır. Mediaforumda Azərbaycan, Qazaxıstan, Rusiya, Türkmənistan və Özbəkistandan nümayəndə heyətləri, habelə Rusiya Federasiyası Dövlət Duması və Prezident Aparatından qonaqlar, Həştərxanda yerləşən Xəzəryanı ölkələrinin konsul idarələrinin rəhbərləri iştirak edəcəklər.

Forum çərçivəsində iki gün ərzində panel müzakirələri, ekspertlərin görüşləri və strateji sessiyalar keçiriləcək. Əsas tədbirlər isə “Rəqəmsallaşma dövründə media istiqamətləri” plenar iclası, “Media kommunikasiyaları ictimai diplomatiya vasitəsi kimi” panel diskussiyası, “Xəzər Konvensiyası: bir il sonra” ekspert sessiyası və təhlükəsizlik və geosiyasi məsələlər üzrə ekspert sessiyası olacaq.

Ekspert qismində Rusiya Gənclər İttifaqının, A.Qorçakov adına İctimai Diplomatiyaya Dəstək Fondunun, Prezident Qrantları Fondunun, Avrasiya Xalqları Assambleyası və Rusiya Xalqları Assambleyasının nümayəndələri, Rusiyanın və xarici ölkələrin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri, elmi ictimaiyyətin təmsilçiləri çıxış edəcəklər.

V Xəzər Mediaforumunun təşkilatçısı “Xəzər-Avrasiya beynəlxalq və ictimai-siyasi tədqiqatlar mərkəzi” Assosiasiyasıdır. Tədbirin informasiya dəstəyini isə Həştərxan vilayətinin Hökuməti verir. Forumun tərəfdaşları qismində “Şimal-Cənub” politologiya mərkəzi və “Avrasiya monitorinqi” analitik tədqiqatlar mərkəzidir. Layihə MDB iştirakçısı dövlətlərin Beynəlxalq Humanitar Əməkdaşlıq Fondunun vəsaiti hesabına həyata keçirilir.

Mediaforumun açılışında Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin iştirak edəcək.

# Fuad Qəhrəmanlının öz ailə üzvlərinə qarşı tətbiq etdiyi zorakılıq təmsil olunduğu düşərgəni ifşa etdi

*Bu fakt Əli Kərimli və ətrafındakıların ailə-məişət həyatlarında belə nə qədər sadist və despot təfəkkürlü, zorakılığa meyilli olduqlarının da təsdiqidir*

Məlumdur ki, bu gün respublikamızda insan hüquq və azadlıqlarının təmin olunması və daha da təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılır. Azərbaycan Konstitusiyasının müddəalarının təxminən yarıdan çoxu insan hüquq və azadlıqlarını əhatə edir. Ölkəmiz insan hüquqlarının qorunması prinsiplərini özündə ehtiva edən beynəlxalq müqavilələri və konvensiyaları dəstəkləyir.

Təəssüf ki, “insan hüquqları”, “demokratiya” kimi sözləri dilində şüar edən radikal müxalifət düşərgəsinin bundan yalnız alət kimi istifadə etməsi faktları saysızdır. Partiyaları daxilində üzvlərə qarşı təzyiqlər göstərmələri, hətta onlara fiziki zor tətbiq etmələri ilə bağlı zaman-zaman ortaya çıxan faktlar radikal dağıdıcıların əsl simasını təsdiq edir. Nəinki partiyalarında, hətta ailələri daxilində belə qeyri-insani rəftarları onların “demokratiya” və “insan hüquqları” sözlərindən manipulyasiya vasitəsi kimi istifadə etdiklərini təsdiqləyir.

Son günlərdə müzakirələrə səbəb olan AXCP sədrinin keçmiş müavini Fuad Qəhrəmanlının qızı Selcan Yağmurun sosial şəbəkələrdə paylaşdığı status sözügedən məsələni növbəti dəfə aktuallaşdırdı. Bir daha bəlli oldu ki, yalan vədlərlə insanları aldatmağa çalışan, xarici ermənipərəst mərkəzlərin sifarişləri əsasında hərəkət edən bu kimi şəxslər mahiyyət etibarı ilə demokratiyadan uzaq, insan hüquq və azadlıqlarına hörmət etməyən kəslərdir.

Vurğulayaq ki, AXCP sədrinin keçmiş müavini Fuad Qəhrəmanlının qızı Selcan Yağmur Facebook sosial şəbəkəsində atasının ona və anasına qarşı zorakılıq tətbiq etməsi ilə bağlı faktlar açıqlayıb. Selcan Yağmur öz statusunda bildirib ki, **“məncə, Azərbaycan siyasətində yetərli bir yeri olan, tribunalarda insan haqlarından danışan, hətta qadın haqları mövzusunda belə aman verməyən Fuad Qəhrəmanlının da evində qızının dizini, arvadının barmaqlarını sındıran, şiddətin də xüsusi sadist növünü tətbiq edən bir cani olduğunu demək, mənə elə gəlir ki, sosial borcdur, mənim şəxsi ailəvi problemim yox”.**

Qeyd edək ki, S.Yağmurun bu statusu radikal düşərgədə böyük rezonansa səbəb oldu və dağıdıcı müxalifətin əsl mahiyyətini ortaya qoydu. Belə ki, S.Yağmur öz paylaşımında AXCP sədri Əli Kərimlinin də Fuad Qəhrəmanlının ailəsinə qarşı etdiyi zorakı hərəkətlərindən xəbərdar olduğunu və buna qarşı heç bir reaksiya vermədiyini, hətta “dözməyi məsləhət gördüyünü” bildirmişdi. Beləliklə, özünə “siyasi lider” deyən, mitinqlərdə ağzı köpüklənərək insan hüquq və azadlıqlarından danışan Əli Kərimli məhz bir gənc tərəfindən növbəti dəfə ifşa olundu. Vurğulayaq ki, Ə.Kərimli daha sonra bunu etiraf edərək baş verənlərdən xəbərdar olduğunu deyib. Sosial şəbəkələrdə, internet kanallarında xarici ermənipərəstlərin pulu ilə min cür yalan danışan, özünü insan hüquq və azadlıqlarının “qoruyucusu” qismində təqdim etməyə çalışan Əli Kərimli körpə bir uşağa və qadına qarşı edilən bir cinayəti susqunluqla qarşılayıb, bununla bağlı ən azından öz müavininə qarşı heç bir tədbir görməyib. Bu addım elə F.Qəhrəmanlının etdiyi qədər böyük nadanlıq və cinayətdir.

Vurğulayaq ki, S.Yağmur öz paylaşımında Əli Kərimlinin bu məsələyə münasibətini açıq şəkildə ortaya qoyub: **“Hətta Əli Kərimli ailə psixoloqluğuna soyunub bu mövzuda! Anamı başa salıb ki, kişilər belə olur, dözmək, gələcəyi düşünmək lazımdır, uşaqlarınız var, “onsuz da 40 yaşından sonra boşanıb nə edəcəksiniz ki?”. Bəs siz Əli Kərimlinin “qonşu arvad” rolunda bu qədər bacarıqlı olduğunu bilirdiniz? Adam az qalırdı desin ki, “az, çörəyini verir? Sus otur da”.**

Gənc bir qız tərəfindən bütün eybəcərlikləri bir daha cəmiyyətə təqdim edilən Ə.Kərimlinin sosial şəbəkələrdə tələm-tələsik özünü müdafiə etməyə çalışması, guya şiddətə qarşı olması ilə bağlı statuslar paylaşması isə arxadan atılan daşa bənzəyir.

**Pərviz SADAYOĞLU**

# Təhlükəsizlik xidmətinin sabiq rəisi Paşinyanı ifşa etdi və hədələdi

*A.Vanetsyan istefadan sonra ondan susmağı xahiş edən baş naziri dərrakəsiz, öz ölkəsinin konstitusiyasından xəbərsiz, populist və səriştəsiz biri kimi qiymətləndirib*



Ermənistanda baş verən müəmmalı istefaların pərdəarxası yavaş-yavaş ortaya çıxmaqdadır. İşğalçı dövlətin baş naziri gözlənilmədən yaşanan hadisələrlə bağlı bir müddət sussa da, bu günlərdə ABŞ-a etdiyi səfər zamanı verdiyi açıqlamalarla özünü lap pis vəziyyətdə qoyub. Belə ki, qarşı tərəfin reaksiyası onun baş nazir kimi həm reputasiyasına, həm də vəzifəsinə xələl gətirəcək qədər sərt olub.

Vəziyyəti gərginləşdirən təhlükəsizlik xidmətinin sabiq rəisi Artur Vanetsyanın istefası ilə bağlı qalmaqallı açıqlamasının xidmətin saytından silinməsinə N.Paşinyanın reaksiyası olub: **“O, təhlükəsizlik xidmətinin de-yure rəisi, ali baş komandana və baş nazirə tabe olan bir qurumun rəhbəri kimi mənə qarşı bəyanat verib. Zabit şərəfinə bundan daha böyük təhqir ola bilməz. Sonra bu materialın xidmətin saytında yerləşdirildiyini bildim. Silinib. Onlar nə etməliydilər? Saxlamalıydılar? Zabitin belə bir hərəkəti poqonlarını zibil qutusuna atmağa bərabərdir”.**

Xatırladaq ki, təhlükəsizlik xidməti rəisi postundan istefa verən A.Vanetsyan vəzifəsini tam təhvil vermədən istefası ilə bağlı bəyanat vermiş və həmin bəyanat xidmətin rəsmi saytında yerləşdirilmişdi: **“Dövlət quruculuğunun öz məntiqi var. Kortəbii qərarlar, fəaliyyətdə çarəsizlik, birinci dərəcəli ilə ikinci dərəcəli məsələlərin arasında fərqin olmaması məqsədə çatmağa aparan yol deyil. Bunun zabit ləyaqəti ilə heç bir əlaqəsi yoxdur: zabit poqonu və hadisələrin bu şəkildə inkişafı bir-birinə uyğun deyil. İstefam bu gedişə “dur” demək üçün bir addım olsun”.**

Los-Anceles şəhərində mətbuat konfransı zamanı N.Paşinyanın söylədiklərinə qarşı tərəfin reaksiyası da özünü çox gözlətməyib. “Hraparak.am” saytına A.Vanetsyanın verdiyi açıqlamaları baş nazir kimi ölkə daxilində Paşinyanın aldığı ən böyük zərbə kimi qiymətləndirmək olar. Belə ki, A.Vanetsyan bəyanatında baş naziri açıq şəkildə hədələyib: **“Los-Ancelesdəki mətbuat konfransı zamanı Ermənistanın baş naziri N.Paşinyan yenə də çox az dərk etdiyi məsələlər haqqında danışıb. İstefadan sonra o, vəziyyət sakitləşənə qədər susmağımı xahiş etmək üçün yanıma adamlarını göndərməyə davam edir. Amma indi görürəm ki, bir daha razılaşmaları pozur, anlaşılmaz və əslində heç bir məna kəsb etməyən populist açıqlamalar verir”.**

Keçmiş xidmət rəisinin sözlərinə görə, ictimai əhval-ruhiyyəyə qısamüddətli təsir göstərmək arzusuna qapılan N.Paşinyan bir daha işlətdiyi sözlərin nəticələri barədə düşünmür: **“Təsəvvür edin ki, işlətdiyim ifadələrin nəticələrini düşünmədən birdən mən də danışmağa başlasam, onda nə baş verər?”**

A.Vanetsyan N.Paşinyanı hədələməklə qalmayıb, onu hərb sahəsindən və öz ölkəsinin konstitusiyasından xəbərsiz olmaqda da günahlandırıb: **“Hərbi biliyə malik olmayanın və hərbi düşüncəyə dair səthi təsəvvürü olanın zabitin şərəfi və çiynindəki poqonlarının əhəmiyyətindən xəbərsiz olması başadüşüləndir. Yeri gəlmişkən xatırladım ki, Ermənistan konstitusiyasına görə, baş nazir sülh dövründə ali baş komandan səlahiyyəti daşımır”.** Sonda A.Vanetsyan deyib ki, istefa haqqında bəyanatını diqqətlə oxuyanlar onun nədən bəhs etdiyini yaxşı başa düşüblər: **“Buna görə də əminliklə deyə bilərəm ki, kimin və ya nəyin zibilliyə atılacağını zaman göstərəcək”.**

Beləliklə, sabiq xidmət rəisinin baş nazir N.Paşinyanı dərrakəsiz, habelə populist çıxışlarla və manipulyativ ifadələrlə xal qazanmaq istəyən səriştəsiz biri kimi qiymətləndirməsi sensasiyalı olmaqla yanaşı, işğalçı dövlətdəki mövcud durumun təhlükəli məcraya doğru getdiyindən xəbər verir.

**Qaşqay ZİYƏDDİNOĞLU**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az


## Azərbaycanda arıçılığın həm daxili bazar, həm də ixrac üçün çox böyük potensialı var

*İki il bundan əvvəl regionlarda təxminən 270 min arı ailəsi var idisə, hazırda arı ailələrinin sayı artaraq 503 minə çatıb*



Azərbaycanda həyata keçirilən məqsədyönlü inkişaf strategiyası və islahatlar kursu ölkəmizin davamlı inkişafını təmin edib. Bu gün regionun əsas güc mərkəzi olan Azərbaycanın inkişafını şərtləndirən əsas faktorlardan biri də ölkəmizin regionlarının dinamik inkişafıdır. 2004-cü ildən icrasına başlanılan Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramlarının uğurla həyata keçirilməsinin nəticəsidir ki, bu gün bütün şəhər və rayonlarımızda müasir standartlara cavab verən güclü infrastruktur formalaşdırılıb, əhalinin sosial müdafiəsinin təşkili istiqamətində effektiv tədbirlər görülüb, yüzminlərlə yeni iş yerləri yaradılıb, vətəndaşların gəlirləri əsaslı şəkildə artıb. Faktiki olaraq, Azərbaycanın regionları ölkə iqtisadiyyatının inkişafında lokomotiv rolunu oynayır. Bu isə həm də o reallığı ifadə edir ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs ölkəmizin inkişafını təmin etməklə, respublikamızın iqtisadi potensialının da artmasını şərtləndirib. Azərbaycanın uğurlu inkişafını təmin edən əsas faktorlardan biri də, şübhəsiz ki, müasir dövrün çağırışlarına və geosiyasi, qlobal iqtisadi şəraitə uyğun praqmatik kursun müəyyənləşdirilməsi və ardıcıllıqla həyata keçirilməsidir. Bu mənada yeni iqtisadi şəraitdə aqrar sektorun üstün inkişafına nail olmaq da mühüm əhəmiyyət kəsb edir. Ərzaq təhlükəsizliyinin təmin olunması, ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi Azərbaycan dövlətinin aqrar sahədə həyata keçirdiyi tədbirlərin başlıca məqsədlərindən birini təşkil edir. Bu strateji məqsədə nail olmaq üçün regionların investisiya və infrastruktur təminatı möhkəmləndirilir, meliorativ tədbirlər görməklə dövriyyəyə yeni torpaqlar cəlb edilir, fermerlərə zəruri dəstək tədbirləri göstərilir. Həyata keçirilən bu və ya digər tədbirlər respublikamızda arıçılığın da inkişafına geniş perspektivlər açır.

### ARIÇILIQ AZƏRBAYCANDA ÇOX QƏDİM TARİXƏ MALİKDİR

Ümumiyyətlə, arıçılıq Azərbaycanda çox qədim tarixə malikdir. Ölkəmizin əlverişli iqlimi, zəngin bitki örtüyü arıçılığın inkişafını şərtləndirən başlıca amillərdəndir. İqtisadi cəhətdən gəlirli sahə olan arıçılıq həm də ətraf aləmin, ekoloji mühitin yaxşılaşdırılması baxımından ən səmərəli təsərrüfat sahəsidir. Son illər ölkəmizdə heyvandarlığın əsas sahələrindən biri kimi arıçılıq xeyli inkişaf edib, bu sektorda fəaliyyət göstərən təsərrüfatların subsidiyalaşdırılması, bazara çıxışının təmin olunması istiqamətində mühüm addımlar atılıb. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransdakı nitqində Prezident İlham Əliyev arıçılığa dövlət dəstəyinin artırıldığını vurğulayaraq deyib: **“Arıçılığın həm daxili bazar, həm də ixrac üçün çox böyük potensialı var. Bizim balımız çox keyfiyyətlidir, xarici bazarlarda yüksək qiymətləndirilir. Biz indi həm ailə biznesi çərçivəsində arıçılığa dəstək oluruq, həm də ki, subsidiyalar verilir, bu yaxınlarda artırılıbdır. Arıçılığın böyük perspektivləri var, bu, çox gəlirli sahədir. Fermerlər, vətəndaşlar üçün çox gözəl nəticələr verə bilər”.**

Vurğulandığı kimi, ölkədə arıçılığı inkişaf etdirmək məqsədi ilə son illərdə bir sıra tədbirlər həyata keçirilib. Belə ki, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi Tədqiqat İnstitutunun nəzdində Arıçılıq Mərkəzi yaradılıb, habelə Azərbaycan Arıçılar Assosiasiyası təsis edilib. Hazırda damazlıq arıçılıq təcrübəsinin genişləndirilməsi, genefond arıxanaların yaradılması, arıçılıq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi, sərgi-satış yarmarkalarının təşkili və s. istiqamətlərdə məqsədyönlü tədbirlər görülür. Bu tədbirlərdən biri də Qax rayonunda keçirilən III Bal bayramıdır.

Qeyd edək ki, Qax Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Mədəniyyət və Kənd Təsərrüfatı nazirliklərinin, Azərbaycan Arıçılar Assosiasiyasının dəstəyi ilə reallaşan bayramın keçirilməsində əsas məqsəd gəlirli sahələrdən olan arıçılığı təbliğ etmək, bu sahəyə marağı artırmaq, həmçinin Qaxın iqtisadi, mədəni və turizm potensialını daha geniş nümayiş etdirməkdir.

Bayramda Kənd Təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbov, Milli Məclisin deputatı Azər Kərimli, Mədəniyyət Nazirliyinin, Meliorasiya və Su Təsərrüfatı ASC-nin və digər dövlət qurumlarının rəsmiləri, qonşu rayonların icra hakimiyyətlərinin başçıları, Arıçılıq Assosiasiyasının rəhbərliyi, 10 rayonun arıçılıq birliklərinin nümayəndələri, bal istehsalçıları və rayon sakinləri iştirak ediblər.

Qax şəhərindəki “İçəribazar” Turizm və Mədəniyyət Mərkəzində keçirilən bayramın rəsmi açılış mərasimində rayon icra hakimiyyətinin başçısı Musa Şəkiliyev çıxış edərək, dövlətin aqrar siyasətində arıçılığın inkişaf etdirilməsinin diqqət mərkəzində saxlanıldığını xüsusi vurğulayıb. Qeyd edilib ki, arıçılığı inkişaf etdirmək məqsədilə son illər ölkə rəhbərliyi tərəfindən mühüm tədbirlər həyata keçirilir. Arıçılığın inkişafı kənd əhalisinin gəlirlərinin artmasına və məşğulluğunun təmin edilməsinə də çox yaxşı təsir göstərir.

### ALTI MİNDƏN ÇOX İNSAN BİLAVASİTƏ ARIÇILIQLA MƏŞĞUL OLUR

Təbii ki, arıçılıq sahəsində qədim ənənələrə malik olan Qaxda Bal bayramının keçirilməsi heç də təsadüfi deyil. Bu gün rayonda kənd təsərrüfatının mühüm və gəlirli sahəsi olan arıçılığın inkişafına çox böyük diqqət yetirilir. Bunun nəticəsidir ki, arıçılığa maraq göstərənlərin sayı da ildən-ilə artır. Son üç ildə rayonda arı ailələrinin sayı 2 dəfədən çox artırılaraq 21 min 700-ə çatdırılıb. Ötən il qaxlı arıçılara dövlət büdcəsinin vəsaiti hesabına 217 min manat subsidiya ödənilib. Cari ilin ötən dövründə rayonda 200 tonadək bal istehsal olunub. Məhsul istehsalı əvvəlki illə müqayisədə iki dəfəyədək artıb.

Mərasimdə Kənd Təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbov çıxış edərək, aqrar sahənin inkişafının dövlətin önəm verdiyi prioritet istiqamətlərdən biri olduğunu bildirib. Vurğulanıb ki, son dövrlər Prezident İlham Əliyev tərəfindən aqrar sahənin inkişafına çox böyük diqqət və qayğı göstərilir. Bunun heç də təsadüfi olmadığını bildirən nazir müavini deyib: **“Ərzaq təhlükəsizliyinin etibarlı şəkildə təmin edilməsi hazırda bütün dövlətlərin qarşısında duran ən vacib və strateji vəzifələrdən biridir. Ərzaq təhlükəsizliyinə çox ciddi töhfə verən sahələrdən biri də arıçılıqdır. Arıçılıq dünyada yeganə sahədir ki, onun inkişafı digər sahələrin inkişafına heç bir mənfi təsir göstərmir, təbii ehtiyatları azaltmır. Əksinə, digər sahələrdə məhsuldarlığın artırılmasına, tozlanmanı daha da sürətləndirməklə bağçılığın, kənd təsərrüfatının digər sahələrinin inkişafına çox yaxşı təsir göstərir”.**

Nazir müavini vurğulayıb ki, Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü ilə ölkəmizdə arıçılığa xüsusi dövlət dəstəyinin göstərilməsi çox qısa bir zamanda öz müsbət təsirini göstərməkdədir. İki il bundan əvvəl Azərbaycanda təxminən 270 min arı ailəsi var idisə, hazırda arı ailələrinin sayı artaraq 503 minə çatıb. Altı mindən çox insan bilavasitə arıçılıqla məşğul olur.

S.Talıbovun sözlərinə görə, arıçılıq dünyada yeganə sahədir ki, onun inkişafı digər sahələrin inkişafına heç bir mənfi təsir göstərmir, təbii ehtiyatları azaltmır. Əksinə, digər sahələrdə məhsuldarlığın artırılmasına, tozlanmanı daha da sürətləndirməklə istər bağçılığın, istərsə də kənd təsərrüfatının digər sahələrinin inkişafına çox yaxşı təsir göstərir. Ona görə də, təbii iqlim şəraiti imkan verən dünya ölkələrində arıçılığın inkişafı xüsusi diqqətdə saxlanılır və bu sahə dövlət dəstəyi ilə əhatə olunur.

Nazirliyin rəsmisi vurğulayıb ki, Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü ilə ölkəmizdə arıçılığa xüsusi dövlət dəstəyinin verilməsi çox qısa bir zamanda öz müsbət təsirini göstərməkdədir: **“İki il bundan əvvəl Azərbaycanda təxminən 270 min arı ailəsi var idisə, hazırda arı ailələrinin sayı artaraq 503 minə çatıb. Altı mindən çox insan bilavasitə arıçılıqla məşğul olur. Arıçılığın rentabelliliyi, əldə edilən gəlirin yüksək olması əhalinin bu sahəyə marağının artmasına səbəb olub”.**

### BU İL HƏR ARI AİLƏSİNDƏN ORTA MƏHSULDARLIQ 15 KİLOQRAMA ÇATIR

Dövlətimizin bu sahəyə yüksək diqqət və qayğısı, dəstək tədbirləri arıçı fermerlər, bu sahənin mütəxəssisləri tərəfindən də yüksək qiymətləndirilir. Qaxda keçirilən bal bayramında iştirak edən Azərbaycan Arıçılar Assosiasiyasının rəhbəri Bədrəddin Həsrətov da deyib ki, son illər dövlətimiz tərəfindən arıçılığın inkişafına çox böyük dəstək göstərilir. Subsidiyaların verilməsi, “Kənddən şəhərə” layihəsi çərçivəsində arıçıların istehsal etdiyi balın satılması, hər il keçirilən arıçılıq məhsullarının satış-yarmarkaları, həmçinin artıq üçüncü dəfədir ki, Qaxda reallaşan bal bayramı arıçılığın inkişafına təsir göstərən amillərdəndir. Təsadüfi deyil ki, son iki ildə ölkədə arı ailələrinin sayı iki dəfəyədək artıb. AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində üç il əvvəl yaranan Assosiasiyanın hazırda 46 rayon və 4 şəhərdə mərkəzlərinin fəaliyyət göstərdiyini diqqətə çatdıran B.Həsrətov bildirib ki, keçən il Azərbaycanda 3 min ton bal istehsal olunub: **“Builki istehsalımız artıq 6 min tona yaxınlaşır. Əvvəlki illərdə hər arı ailəsindən 8-10 kiloqram bal istehsal olunurdusa, bu il orta məhsuldarlıq 15 kiloqrama çatır. Azərbaycan artıq xaricə bal ixrac etməyə başlayıb. Bu il Yaponiyaya 8 ton, Birləşmiş Ərəb Əmirliklərinə 3 ton, Dubaya isə 4 tona yaxın bal göndərilib. Hazırda İordaniya ilə danışıqlar aparılır. Bu yaxınlarda oraya da bal göndəriləcək. Bunlar ilkin nümunələrdir”.**

**Aqşin ŞAHİNOĞLU**

## Sinxua: Çin və Azərbaycan əməkdaşlığın möhkəmləndiriləcəyini vəd edirlər




Çin kütləvi informasiya vasitələri Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərini diqqətdə saxlayıb.

AZƏRTAC xəbər verir ki, ölkənin əsas media qurumlarından milli xəbər agentliyi Sinxua, Çin Mərkəzi Televiziyası (CCTV), rəsmi “Renmin Ribao” qəzeti, digər populyar xəbər saytları mövzu ilə bağlı Çin, ingilis və rus dillərində dəfələrlə reportajlar və xəbərlər, geniş məqalələr hazırlayıblar.

Sinxua agentliyinin “Diqqət mərkəzində: Çin və Azərbaycan əməkdaşlığın möhkəmləndiriləcəyini vəd edirlər” başlıqlı reportajında Prezident İlham Əliyevin Çin qanunverici orqanının rəhbəri Li Canşu ilə görüşündə iki ölkə arasında münasibətlərin sürətlə inkişafı ilə bağlı səsləndirdiyi fikirlərə geniş yer verilib.

Reportajda, həmçinin nümayəndə heyətinin Milli Məclisin sədri Oqtay Əsədov və Baş Nazir Novruz Məmmədov ilə görüşlərindən, Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarətindən, Heydər Əliyev Mərkəzi və xalça muzeyi ilə tanışlığından söz açılır.

Çin KİV-lərinin mövzu ilə bağlı materiallarında Li Canşunun sözlərinə istinadla qeyd olunur ki, Çin nümayəndə heyətinin Bakıya səfəri dövlət başçılarının Azərbaycan ilə Çin arasında münasibətlərin inkişafı ilə bağlı əldə etdiyi razılaşmaların icrasına və qanunverici orqanlar arasında əməkdaşlığın dərinləşməsinə dəstək məqsədi daşıyır.

Li Canşunun “Hər bir ölkənin nadir tarixi, milli şəraiti və mədəniyyəti var. Ona görə də fərqli sivilizasiyalar harmoniyalı şəkildə yaşamalı və bir-birindən öyrənməlidir” fikrini vurğulayan Çin KİV-ləri yenə Çin rəsmisinə istinadla yazır ki, Ümumçin Xalq Nümayəndələri Yığıncağı Azərbaycanın Milli Məclisi ilə xalqlarımız və dövlətlərimiz arasında əlaqələrin və mübadilənin inkişafı istiqamətində əməkdaşlıqda maraqlıdır.

Materiallarda iki ölkə arasında iqtisadi əlaqələrdən də söz açılaraq bildirilir ki, Li Canşu Baş Nazir Novruz Məmmədov ilə görüşdə Avropa və Asiyanın kəsişməsində yerləşən Azərbaycanın “Bir kəmər, bir yol” boyunca vacib ölkə olduğunu deyib.

Daimi Komitənin sədri ölkəsinin Azərbaycan ilə iqtisadi və ticari əməkdaşlığı dərinləşdirməyə, “Bir kəmər, bir yol” strategiyasının icrasında əməkdaşlığa hazır olduğunu deyib.

## Bağdad Amreyev: Macarıstanın Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fonduna üzv olmaq müraciətini yüksək dəyərləndirdik




Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) Budapeştdə ofisinin açılması Macarıstanla türk dünyası arasındakı əlaqələri sürətlə genişləndirəcək. Hesab edirəm ki, bu ofis, eyni zamanda, rəsmi Budapeşt ilə Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA), Beynəlxalq Türk Akademiyası (BTA) və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu (BTMİF) arasında sıx əlaqələr quracaq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türk Şurasının Baş katibi Bağdad Amreyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Budapeştdə ofisinin istifadəyə verilməsini şərh edərkən ifadə edib.

Baş katib bildirib ki, Türk Şurasının Xarici İşlər Nazirləri Şurasının Budapeştdə keçirilən növbədənkənar iclasında Macarıstanın Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fonduna müşahidəçi statusla üzv olmaq müraciəti təşkilat tərəfindən yüksək dəyərləndirilib.

## ARDNF-in 2019, 2020, 2021-ci illər üzrə maliyyə fəaliyyətinin auditini PraysvoterhausKupers Audit Azərbaycan şirkəti həyata keçirəcək



Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) 2019, 2020, 2021-ci illər üzrə maliyyə fəaliyyətinin auditini keçirmək məqsədi ilə Azərbaycan Respublikasının dövlət satınalmaları haqqında qanunvericiliyinə uyğun olaraq xidmət təkliflərinin cəlb olunması prosedurunu keçirmişdir.

Xidmət təklifləri sorğusuna əsasən Azərbaycan Respublikasında fəaliyyət göstərən nüfuzlu beynəlxalq auditor təşkilatları tərəfindən təqdim olunmuş təkliflərin qiymətləndirilməsi nəticəsində ən münasib təklif vermiş PraysvoterhausKupers Audit Azərbaycan şirkəti müsabiqənin qalibi müəyyən edilmiş və Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnaməyə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti tərəfindən ARDNF-in 2019, 2020, 2021-ci illər üzrə maliyyə fəaliyyətinin auditini keçirmək üçün auditor təyin edilmişdir.

## “Nar” tələbələr üçün təqaüd proqramı elan edir!

Ölkədə informasiya texnologiyaları sahəsində yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsini hər zaman diqqət mərkəzində saxlayan “Nar” mobil operatoru Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlıq çərçivəsində tələbələr üçün təqaüd proqramı elan edib. Universitetin informasiya texnologiyaları və informatika ixtisasları üzrə təhsil alan tələbələr təqaüd proqramında iştirak edə bilərlər. Bu təqaüd proqramı çərçivəsində 2019-2020-ci tədris ilində müvafiq ixtisaslardan olan və dərslərində yüksək göstəricilərə malik 5 tələbəyə aylıq təqaüd veriləcək.

Xatırladaq ki, “Nar” artıq ikinci ildir ki, rabitə sahəsində gələcəyin yerli peşəkarlarının yetişdirilməsinə dəstək məqsədilə tələbələr üçün təqaüd proqramı təşkil edir.

“Nar” KSM startegiyası çərçivəsində müxtəlif yaş qruplarından və sosial təbəqələrdən olan şagird və tələbələrin maarifləndirilməsi, dünyagörüşünün artırılması və analitik düşüncə qabiliyyətinin inkişafı istiqamətində bir çox layihələrə imza atıb. Eyni zamanda, informasiya texnologiyaları sahəsinin daha da gücləndirilməsi və təşviqi üçün mobil operator təhsil müəssisələri ilə də əməkdaşlıqlar edir. Belə ki, Azərbaycan Texniki Universiteti və ADA Universiteti ilə tələbələrin praktiki biliklərinin inkişafına yönəlik uzunmüddətli layihələr həyata keçirilir.




“Nar”ın KSM layihələri barədə daha ətraflı məlumatı nar.az səhifəsindən əldə edə bilərsiniz.


Təsisçi: Yeni Azərbaycan Partiyası

Baş redaktor: Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar: 598-37-76, 498-82-21, 498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820

“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz: “AZƏRTAC”, “Azadinform”, “SİA”

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul: Zahid İLHAMOĞLU